**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN VƏ RUS UŞAQ ƏDƏBİYYATI VƏ FOLKLORU: TƏŞƏKKÜLÜ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ QARŞILIQLI ƏLAQƏLƏRİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Səməngül Hüsü qızı Qafarova**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2025**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi məsləhətçi: | filologiya elmləri doktoru, professor<br>**Rüstəm Kamal oğlu Rəsulov** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Rafiq Yusif oğlu Əliyev** |
| | filologiya elmləri doktoru, professor<br>**Yədulla Bədir oğlu Ağazadə** |
| | filologiya elmləri doktoru, dosent<br>**Laləzar İkram qızı Əlizadə** |
| | filologiya elmləri doktoru, dosent<br>**Esmira Seyfəl qızı Şükürova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu ńəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: __________ | filologiya elmləri doktoru, professor<br>**Seyfəddin Gülverdi oğlu Rzayev** |
| Dissertasiya şurasının elmi katibi: __________ | filologiya üzrə fəlsəfə doktoru,<br>**Nizami Şamil oğlu Adışirinov** |
| Elmi seminarın sədri: __________ | filologiya elmləri doktoru, dosent<br>**Leyla Kamran qızı Məmmədova** |

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü, inkişafı, qarşılıqlı əlaqələri və folklorunun müqayisəli şəkildə tədqiqi həm son dərəcə *aktual*, həm çox mürəkkəb mövzudur. Mövzunun tarixi-ədəbi başlanğıc məqamının, əsasən, XIX əsrin sonları – XX əsrin əvvəllərinə təsadüf etməsi onu "müasir" tarixə aid etməklə ilk baxışda "asanlaşdırsa"da, əslində, Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkül, inkişaf, qarşılıqlı əlaqələr və folkloru kimi kontekstlərdə tədqiqi mövzunun tarixi-mədəni "başlanğıcının" heç də "XIX əsrin sonları – XX əsrin əvvəlləri" ilə məhdudlaşmadığını, Azərbaycan və rus xalqlarının "uşaq ədəbiyyatının" nümunəsində ədəbi düşüncənin zaman-məkan dərinlikləri ilə sıx şəkildə əlaqəli olduğunu ortaya qoyur. Bu da öz növbəsində dissertasiyada "uşaq ədəbiyyatı" konseptinə uyğun fərqli və yeni paradiqmalarda yanaşmağı aktuallaşdırmışdır.

"Uşaq ədəbiyyatı", istər Azərbaycan və rus xalqlarınn uşaq ədəbiyyatlarının nümunəsində, istərsə də dünya xalqlarının ədəbiyyatı tarixində bütün zamanların aktual ədəbi konsepti olmaqla cəmiyyət tarixinin ən qədim dövrləri ilə sıx şəkildə əlaqədardır.

Azərbaycan və rus uşaq ədəbiyyatının qarşılıqlı əlaqələrinin tədqiqini aktulallaşdıran mühüm məqamlardan biri XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının tarixi inkişaf dinamikasında baş vermiş tipoloji-mədəni dəyişikliklərdir. Azərbaycanın şimal hissəsinin Rusiya imperiyasının tərkibinə daxil olması ölkənin siyasi-ictimai həyatında olduğu kimi, ədəbi-mədəni həyatında ciddi dəyişmələrə gətirdi. Şimali Azərbaycan ziyalıları fəal şəkildə Qərb, rus ədəbiyyatı və mədəniyyəti ilə ünsiyyətə daxil oldular. Bu prosesə imperiyanın ruslaşdırma siyasəti ardıcıl təkan verirdi. Rus və Qərb ədəbiyyatı ilə tanışlıq milli maarifçi ziyalılarda uşaq ədəbiyyatının yaradılmasına xüsusi əhəmiyyət verməyin zərurət olması ideyalarını oyadırdı. Bu ziyalılar rus və Qərb uşaq ədəbiyyatının nümunələrini dilimizə çevirir və milli uşaq ədəbiyatının yeni nümunələrini yaradırdılar. Həmin nümunələrin məzmunca milliliyi Azərbaycan "uşaq ədəbiyyatının" ədəbi-tarixi potensiyasına bağlayır, forma baxımından da rus və Qərb uşaq ədəbiyyatı ilə

əlaqələndirirdi. Beləliklə, Azərbaycan və rus uşaq ədəbiyyatının XIX əsrin sonu – XX əsrin əvvəllərindən başlanan təşəkkülü, sonrakı onilliklərdə ciddi inkişafa, XX əsr sovet mühütində Azərbaycan və rus uşaq ədəbiyyatının inkişafı və qarşılıqlı əlaqələri sovet ədəbiyyatı ideoloqlarının diqtəsi ilə idarə olunan prosesə qədəm qoydu.

Dissertasiya mövzusunun *işlənmə dərəcəsinə* gəldikdə vurğulamalıyıq ki, bu sahədə bir çox irili-xırdalı tədqiqatar mövcuddur. Onlardan Ramazan Qafarov, Təyyar Cavadov, Yaqub Babayev, Vüqar Əhməd, Zahid Xəlil, Rafiq Yusifoğlu və digər ayrı-ayrı müəlliflərin, ədəbiyyatların nümunəsində Azərbaycan-rus uşaq ədəbiyyatının müxtəlif problemlərindən bəhs olunmuşdur. Dissertasiya işində həmin tədqiqatların nəticələrinə ciddi şəkildə istinad olunmuşdur. Dissertasiyanın bu mövzu ilə bağlı mövcud araşdırmalardan kardinal fərqi burada problemin ilk dəfə geniş sistem səviyyəsində analizə cəlb olunmasıdır. Başqa sözlə, mövcud dissertasiya işində Azərbaycan və rus uşaq ədəbiyyatları ilk dəfə olaraq eyni zamanda həm təşəkkül, həm inkişaf dinamikası, həm qarşılıqlı əlaqələr, həm də folklor əlaqələri baxımından müqayisəli şəkildə öyrənilmişdir. Müqayisənin prinsiplərinin (təşəkkül, inkişaf, əlaqələr və folklor) əhatəli və geniş olması mövzunun tədqiqini çətinləşdirsə də, Azərbaycan və rus uşaq ədəbiyyatlarının qarşılıqlı inkişaf dinamikasını irimiqyaslı kontekstdə tədqiq etməyə imkan vermişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin *obyektini* Azərbaycan və rus uşaq ədəbiyyatı və folklor nümunələri təşkil edir.

Tədqiqatın *predmeti* aşağıdakı kardinal istiqamətləri əhatə edir:

– Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü proseslərinin milli-ədəbi və universal-tipoloji xüsusiyyətlərinin öyrənilməsi;

– Azərbaycan və rus uşaq ədəbiyyatının inkişafı proseslərinin milli-ədəbi spesifikasının tədqiqi;

– Azərbaycan və rus uşaq ədəbiyyatının qarşılıqlı əlaqələrinin öyrənilməsi;

– Azərbaycan və rus uşaq folklorunun müqayisəli analizi.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın qarşısında duran əsas məqsəd Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü,

inkişafı, qarşılıqlı əlaqələri və folklorunun müqayisəli şəkildə öyrənilməsidir.

Bu məqsəd aşağıdakı beş əsas istiqamət və ondan irəli gələn vəzifələri əhatə edir:

*1. Azərbaycan uşaq ədəbiyyatının təşəkkülünü şərtləndirən amillər:*

Azərbaycan uşaq ədəbiyyatının tarixi ənənələr bucağından öyrənilməsi, uşaq ədəbiyyatının inkişafı tarixini keçmiş, dünən və bu günün tələbləri səviyyəsində araşdırılması burada öz əksini tapmışdır.

*2. Rus uşaq ədəbiyyatının inkişaf mərhələləri:*

Buraya rus uşaq ədəbiyyatının təşəkkülünə tarixi baxışların, rus uşaq ədəbiyyatının inkişaf mərhələləri kimi məsələlərin öyrənilməsi, Azərbaycan və rus yazıçılarının yaradıcılığında uşaq ədəbiyyatı ilə bağlı qarşılıqlı ədəbi əlaqələrin aydınlaşdırılması tədqiqi daxildir.

*3. Azərbaycan və rus uşaq nəzminin ədəbi poeziyada yeri:*

Buraya XX əsrin 60-80-ci illərində Azərbaycan uşaq poeziyasının, o cümlədən Mirvarid Dilbazinin, Nigar Rəfibəylinin, Xanımana Əlibəylinin uşaq poeziyasına aid yaradıcılığı, rus uşaq poeziyasının inkişafında müəyyən qədər rolu olan Aqniya Lvovna Barto, Yelena Aleksandrovna Blagina və İrina Petrovna Tokmakovanın uşaq poeziyasındakı yaradıcılığı tədqiqat obyektinə çevrilmişdir.

*4. 60-80-ci illərdə Azərbaycan və rus uşaq nəsri:*

Buraya Azərbaycanda milli uşaq nəsrinin yaranması, XX əsrin 60-80-ci illərində Azərbaycan uşaq nəsrinin (o cümlədən Ələviyya Babayeva, Əzizə Əhmədovanın uşaq nəsrinin), rus uşaq nəsrinin (o cümlədən Zoya İvanovna Voskresenskayanın, Lyubov Fyodrovna Voronkovanın uşaq nəsrinin) tədqiqi kimi məsələlərin öyrənilməsi aid edilmişdir.

*5. Azərbaycan və rus uşaq folkloru:*

Buraya Azərbaycan uşaq folklorunun, Azərbaycan uşaq ədəbiyyatına təsiri və rus uşaq ədəbi nümunələrində folklorun izlərinin öyrənilməsi kimi tədqiqat məsələləri aid edilmişdir.

**Tədqiqatın metodları.** Tarixi-müqayisəli və təsviri-tipoloji təhlil metodlarının tətbiq olunduğu dissertasiya işinin nəzəri-metodoloji bazası, əsasən, dörd istiqamətdə olan ədəbiyyatları əhatə edir:

*Birincisi*, qarşılıqlı ədəbi əlaqələr haqqında elmi-nəzəri ədəbiyyatlar;

*İkincisi*, Azərbaycan ədəbiyyatının təşəkkülü, inkişafı və folkloru haqqında elmi-nəzəri ədəbiyyatlar;

*Üçüncüsü*, rus ədəbiyyatının təşəkkülü, inkişafı və folkloru haqqında elmi-nəzəri ədəbiyyatlar;

*Dördüncüsü*, Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü, inkişafı, qarşılıqlı əlaqələri və folklorunun müqayisəli şəkildə tədqiqi ilə bağlı müxtəlif elmi-nəzəri ədəbiyatlar.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiyada aparılmış təhlillərdən irəli gəlməklə müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

1. "Uşaq ədəbiyyatı" bir konsept kimi öz başlanğıcını bəşər mədəniyyətinin ilkin çağlarından, insanların mifik düşüncə ilə yaşadığı dövrdən götürür. Müasir mifoloji düşüncədə ekzoterik miflər kimi təsnif edilən mif mətnləri bilavasitə uşaqların auditoriyasına aid olmaqla müasir uşaq ədəbiyyatının mifoloji "arxetipi" hesab olunur. Bu cəhətdən, miflərin poetikasına məxsus olan "sadəlövh məntiqlə" obrazlaşdırma üsulu müasir uşaq ədəbiyyatında da obrazlaşdırmanın əsas üsullarından biri kimi qalmaqdadır.

2. Azərbaycan və rus uşaq ədəbiyyatlarının təşəkkülü və inkişaf prosesləri, bu ədəbiyyatların qarşılıqlı əlaqələrinə qədər müstəqil inkişaf yolu keçirsə də, onları ümumən uşaq ədəbiyyatının universal-tipoloji keyfiyyətləri birləşdirir.

3. Azərbaycan və rus uşaq ədəbiyyatlarının qarşılıqlı münasibətlərinin başlanma dövrü XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf edən tarixini müasir Azəraycan ədəbiyyatının tarixi taleyinin mühüm taleyüklü hadisəsi hesab etmək olar. Azərbaycanın şimal hissəsinin Rusiya imperiyasının tərkibinə daxil olması Azərbaycan xalqının tarixində məzmun və formaca yeni bir mərhələnin başlanğıcı olduğu kimi, uşaq ədəbiyyatının da tarixində xüsusi mərhələdir.

4. Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü, inkişafı, qarşılıqlı əlaqələri milli uşaq ədəbiyatımızın və ümumən ədəbi düşüncəmizin tarixinə ciddi şəkildə təsir etdi. Maarifçi milli ziyalıların aktiv şəkildə iştirak etdiyi bu prosesdə Azərbaycan uşaq ədəbiyyatı janr

və forma baxımından zənginləşməklə bərabər, uşaq ədəbiyyatının klassik poetik ənənələri məzmun baxımından da yeniləndi.

5. Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü, inkişafı, qarşılıqlı əlaqələri Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə daha da intensivləşərək hakim sovet ideologiyasının nəzarəti altında həyata keçirilən müntəzəm ədəbi əlaqə halına gəldi.

6. Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü, inkişafı, qarşılıqlı əlaqələri və folklorunun müqayisəli tədqiqi hər zaman aktual mövzu olaraq qalır və mövcud dissertasiya əldə olunmuş bütün yeni nəticələri ilə birlikdə problemin həllinə nöqtə qoymayaraq, onun perspektiv inkişaf istiqamətlərinin olduğunu da ortaya qoyur.

**Tədqiqatın elmi yenilikləri.** Dissertasiyada bir çox elmi yeniliklər əldə olunmuşdur:

– Təhlil nəticəsində Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü və inkişafını şərtləndirən əsas amillər üzə çıxarılmış, semantik xüsusiyyətləri müəyyənləşdirilmişdir;

– Azərbaycan uşaq ədəbiyyatının tarixi inkişaf mərhələləri tədqiq olunmuş və inkişaf dialektikasının əsas xüsusiyyətləri üzə çıxarılmışdır;

– Rus uşaq ədəbiyyatının təşəkkül və tarixi inkişaf mərhələlərinin öyrənilməsi nəticəsində onun Aərbaycan uşaq ədəbiyyatının təşəkkülü və tarixi inkişaf mərhələləri ilə universal-tipoloji kontekstdə tortaqlaşan tərəflərə malik olduğu üzə çıxarılmışdır. – Azərbaycan və rus yazıçılarının yaradıcılığında uşaq ədəbiyyatı ilə bağlı qarşılıqlı ədəbi əlaqələrin maqayisəli analizi nəticəsində həmin prosesin “təsir-əks təsir” modeli üzrə reallaşdığı aşkar edilmişdir;

– Azərbaycan və rus yazıçılarının yaradıcılığında uşaq ədəbiyyatı ilə bağlı qarşılıqlı ədəbi əlaqələrin maqayisəli analizi nəticəsində həmin prosesin “təsir-əks təsir” modeli üzrə reallaşdığı aşkar edilmişdir.

– 60-80-ci illər Azərbaycan və rus uşaq poeziyasının müqayisəli analizi ümumsovet uşaq ədəbiyyatı “direktivləri” fonunda hər iki xalqın uşaq poeziyasının milli spesifik cəhətlərini aşkarlamağa imkan vermişdir.

– Dissertasiyada ilk dəfə olaraq 60-80-ci illər Azərbaycan və rus uşaq poeziyası Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Xanımana

Əlibəyli kimi Aərbaycan, Aqniya Lvovna Barto, Yelena Aleksandrovna Blaginina, İrina Petrovna Tokmakova kimi rus sənətkarlarının uşaq poeziyasının nümunələrində müqayisəli analizə cəlb olunmuşdur.

– 60-80-ci illər Azərbaycan və rus uşaq nəsrinin müqayisəli təhlili sovet uşaq ədəbiyyatı üçün xarakterik olan "ümumi yaradıcılıq prinsipləri" kontekstində hər iki xalqın uşaq prozasının milli dəyərlərlə müəyyənləşən obrazlaşdırma xüsusiyyətlərini öyrənməyə şərait yaratmışdır.

– Tədqiqatda ilk dəfə olaraq 60-80-ci illər Azərbaycan və rus uşaq nəsri Ələviyyə Babayeva, Əzizə Əhmədova kimi Azərbaycan, Zoya İvanovna Voskresenskaya, Lyubov Fyodrovna Voronkova kimi rus nasirlərinin uşaq yaradıcılığının simasında müqayisəli təhlilə cəlb edilmişdir.

– Tədqiqatda ilk dəfə olaraq Azərbaycan və rus uşaq folkloru müqayisəli şəkildə tədqiq olunaraq onların poetikasının ortaq və fərqli xüsusiyyətləri müəyənləşdirilmişdir.

– Azərbaycan və rus uşaq ədəbiyyatında folklor motivlərinin bədii-estetik xüsusiyyətləri tədqiq olunaraq, onların hər iki xalqın uşaq ədəbiyatının inkişafındakı rolu müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi həm nəzəri, həm də praktiki baxımdan böyük əhəmiyyət daşıyır.

Dissertasiyanın *nəzəri əhəmiyyəti* onda əldə olunmuş nəticələrin müqayisəli ədəbiyatşünaslıqda tətbiq olunma imkanları ilə şərtlənir. Belə ki, Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü, inkişafı, qarşılıqlı əlaqələri və folklorunun müqayisəli şəkildə tədqiqi bir problem kimi geniş tədqiqat perspektivlərinə malikdir. Bu cəhətdən, "Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü, inkişafı, qarşılıqlı əlaqələri və folkloru" probleminin tədqiqinə həsr edilmiş mövcud dissertasiyada əldə edilmiş nəticə və yeniliklər perspektiv araşdırmalar üçün zəngin nəzəri-metodoloji baza verməkdədir.

Dissertasiyanın *praktik aktuallığı,* əsas etibarilə, tədrislə müəyyənləşir. Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü, inkişafı, qarşılıqlı əlaqələri və folklorunun müqayisəli şəkildə öyrənilməsi məsələlərinə ali məktəblərin, xüsusilə Bakı Slavyan

Universitetinin uyğun fakültələrində tədris olunan fənnlərdə yer verilir. Bu baxımdan, dissertasiya işinin təcrübi əhəmiyyəti ondan əlavə tədris vəsaiti kimi istifadə edilməsi imkanları ilə müəyyənləşir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi filologiya elmləri doktoru, professor Rəsulov Rüstəm Kamal oğlunun elmi məsləhətçiliyi ilə Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Müəllifin işdə əldə etdiyi əsas nəticələr və yeniliklər onun ölkə daxili və xaricində Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda çap etdirdiyi məqalələrdə və konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın mövzusu Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında 7 aprel 2016-cı il (protokol №10) və Respublika Əlaqələndirmə Şurasının 31 yanvar 2017-cı il tarixli (protokol № 1) protokollarının qərarları ilə təsdiq olunmuşdur.

**Dissertasiyanın ümumi həcmi.** Tədqiqatın giriş, beş fəsil və nəticədən ibarət olan ümumi həcmi: 414281 işarədir (Giriş: 13357 işarə; I fəsil: 55344 işarə; II fəsil: 67688 işarə; III fəsil: 143526 işarə; IV fəsil: 61549 işarə; V fəsil: 62427 işarə; Nəticə: 10390 işarə).

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın I fəsli "**Azərbaycan uşaq ədəbiyyatının təşəkkülünü şərtləndirən amillər"** adlanır. Birinci fəsildə **"Azərbaycan usaq ədəbiyyatının tarixi ənənələr bucağından**

**öyrənilməsi”ndə** qeyd olunur ki, hər bir predmetin tarixi ilə nəzəriyyəsi ayrılmazdır.

Azərbaycan uşaq ədəbiyyatının da gələcək inkişaf istiqaməti üçün nailiyyətlərinə görə borclu olduğu keçmişinə nəzər salmalıyıq

Xalqımızın Ümummilli Lideri, Ulu öndər H.Əliyev qeydlərində milli dəyərlərimizi, milli varlığımızı bilməyən, milli-mənəvi ruhda böyüməyən gənclərimiz vətənpərvər ola bilməz - göstərmişdi.

Demokrat yazıçı, mükəmməl pedaqoq C.Məmmədquluzadə qeyd edirdi ki, biz tariximizi öyrənməliyik ki, gələcəkdə səhv etməyək.

Azərbaycan xalqının dövlətçilik ənənələrinə, mütəfəkkirlərin fikirlərinə, «Avesta»ya, Nizami yaradıcılığına, Xəqaninin həyat yoluna, Nəsrəddin Tusinin, İbn Sinanın pedaqogika sahəsindəki fəaliyyətinə, Mahmud Kaşğarinin «Divanü luğət-it-türk» və s. bu kimi əsərlərdəki faktlara əsaslanaraq, Azərbaycanda məktəb və maarifin tarixini çox qədimlərə aid etmək mümkündür.

Dünyanın ən qədim xalqlarından sayılan Azərbaycan türklərinin məktəb və təhsil sahəsində yaşını saxtalaşdırmaq cəfəngiyyatdır. Hər bir xalqın tarixi onun yazılı və şifahi abidələridir. Azərbaycan ərazisində bütün dövrlərə aid abidələrin olması, bu ölkənin qədimliyini və zənginliyini təsdiq edən əlamətlər mövcuddur.

Y.V.Çəmənzəminli ”Xarici siyasətimiz” kitabında[1] Azərbaycanın böyük bir dövlət kimi zaman-zaman müəyyən uğursuzluqlara düçar olduğunu qeyd etmişdir.

Böyük ərəb alimi, 1213 və 1220-ci illərdə Azərbaycana gəlmiş Yaqut əl-Həməvi, «Mucam əl-Buldan» («Ölkələrin adlı siyahısı») əsərində yazır ki, *Azərbaycan çox böyük, çox sayda qalalarla əhatə olunmuş nəhəng və qüdrətli bir ölkədir. Əhalisi xoşsifət, ağdərili, yumşaq xarakterli, azəri dilində danışan, yaxşı müraciətləri olan insanlardır*[2].

---

[1] Çəmənzəminli, Y.V. Xarici siyasətimiz / Y.V.Çəmənzəminli. – Bakı: Azərnəşr, – 1993. – 51 s.

[2] Якут, А.Х., Миджам, А.Б. Сведения об Азербайджане., Хамдаллах Казвини. Нузхат ал-кулуб. Материалы по Азербайджану / – Баку: Элм, – 1983. – с.8.

Yusif Talıbov, Fərahim Sadıqov, Sərdar Quluyevin *«Azərbaycanda məktəb və pedaqoji fikir tarixi»* adlı əsərində[3] Aratta, Hullubi, Kutiumu Azərbaycanda ən qədim, inkişaf etmiş zəngin bir dövlət, Aratta Şumer dövləti ilə iqtisadi, siyasi, mədəni əlaqədə olması, Şumer hökmdarının qiymətli əşya və metalları Arattada taxıla dəyişməsi qazıntılar zamanı sübut olunmuşdur. B.e.ə. III minilliyin ortalarında Şumerdə məktəb ləvazimatı, tarixdə ilk hesab edilən dərs vəsaiti mövcud idi.

Eramızdan əvvəl I minilliyin əvvəllərində Manna dövləti yarandı. Prof. V.Z.Piriyev «Azərbaycanın tarixi-siyasi coğrafiyası» adlı kitabında yazır ki, *bu dövlət azərbaycanlıların əcdadları olmuşlar. Mingəçevirdə, Qobustanda tapılan əlamətlər, yazılar, rəsm əsərləri Mannada yazı və oxu, yəni təlimin, məktəbin olmasından xəbər verir. Manna dövlətinin süqutu e.ə. VI əsrə təsadüf edir. Miladdan əvvəl IV yüzillikdə Azərbaycanın cənubunda Atropaten, şimalında isə Albaniya dövləti yerləşirdi. Atropaten xeyli inkişaf etmişdi, yüksək mədəniyyəti, özünəməxsus dili, yazı ənənəsi var idi. Burada artıq öyrətmə-öyrənmə, müəllim–şagird prosesi, usta- şagird münasibətləri mövcud idi*[4].

Akademik Ziya Bünyadov araşdırmalar apararaq «Azərbaycan VII-IX əsrlərdə» adlı kitabında yazırdı ki, *V əsrdə Arranda məktəblər var idi, uşaqlar məktəbə gedirdilər. Dərs verən rahiblər maaş alırdılar. Bütün bunlara padşah nəzarət edirdi. Arranın hüdudları da Dərbənddən Tiflisə, Naxçıvana, oradan da Astaraya qədər sahəni əhatə edirdi*[5].

Azərbaycan və bir sıra digər ölkələrdə Zərdüştlük geniş yayılmışdı. Bu dinin 12 min inək dərisi üzərində yazılmış 21 kitab və 815 fəsildən ibarət müqəddəs kitabı «Avesta» («Qanun»), müəllifi Azərbaycanın Urmiya şəhərində doğulmuş Zərdüşt idi. «Avesta»da tərbiyə həyatın ən zəruri sütunu, məzmunu, amacı və yoludur. Burada müəllimin rolu yüksək qiymətləndirilir.

---

[3] Talıbov, Y.R., Sadıqov, F.B., Quluyev, S.H. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi / – Bakı: Ünsiyyət, – 2000. – s.3.

[4] Piriyev, V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası / V.Z.Piriyev. – Bakı: Araz, – 2002. – s.29.

[5] Bünyadov, Z. Azərbaycan VII-IX əsrlərdə / Z. Bünyadov. – Bakı: Azərnəşr, – 1989. – s.57.

«Yazı elmin yarısıdır» fikri, tariximizdə mühüm tərkib işi hesab olunur. Qobustanda, Gəmiqayada, Mingəçevirdə, Abşeronda, Azıx mağarasında və s. məkanlarda rast olan yazıları Orxan-Yenisey, Gültəkin, Tonyukuk Göytürk əlifbasına aid etmişlər. 1893-cü ildə Danimarka alimi Tomson sübut etmişdir ki, əski türk əlifbası dünya yazı mədəniyyətinin başlanğıcıdır. Yevgeni Dmitrievi Polivanova (1891-1938) görə dünya əlifbasının yaranmasına səbəb olmuş türk əlifbası V əsrə aiddir. B.Çobanzadə yazırdı ki, XIV əsrdə Rəşidəddin «Cami ət-təvarix» əsərində Orxan kitabələrindən çox əvvəl türklərin yazıları olduğunu göstərir.

Məşhur Amerika şumerşünası S.H.Kramer «Tarix Şumerdən başlanır» kitabında *Şumerlərin də türk olduqlarını və onların «Bilqamis» dastanını dünya ədəbiyyatının ilk bədii əsəri, ulu kitabı hesab etmişdi*[6].

İslamdan əvvəl ərəblər səhralıq olan boz çöllərdə yaşayan, elmi-mədəni səviyyələri olmayan, «Oxuma, yazma bilməyən» savadsız bir tayfa idilər. Məhəmməd peyğəmbərin (s.a.s.) məqsədi cəmiyyəti islah etmək, «ədəb – zehnin və ruhun tərbiyəsidir» prinsipi ilə "tərbiyəli insan" yetişdirmək idi. Ərəblər fəth etdikləri ölkələrdə, o cümlədən, azərbaycanda da ərəb əlifbası tədris olunan məktəblər açmışdılar. Prof. E.Əlibəyzadə göstərir ki, VII əsrə qədər əlifbamız, ədəbiyyatımız, məktəbimiz olmuşdur.

Azərbaycanda VII-X əsrlərdə Təbrizdə, Gəncədə, Bakıda, Naxçıvanda, Şamaxıda, Həmədanda məktəblərdə "Quran"ın müəyyən bir hissəsi olan »Çərəkə» öyrədilirdi.

Zaman dəyişdikcə daha yüksək rütbəli təlim müəssisələri; 830-cu ildə «Beytül-Hikmət» (Elmlər Akademiyası) və Məmluk Sultan Tahirin qızı, Hələbli Nəsrəddinin həyat yoldaşı Zamurrad tərəfindən qadınlar üçün mədrəsə yaranmışdı.

N.Tusinin yaratdığı Marağa rəsədxanası tədris ocağına çevrilmişdi. Azərbaycanda təhsilin inkişafında dünyanın ilk universiteti «Nizamiyyə»nin (1064) böyük rolu olmuşdu.

[6] Крамер, С.Н. История начинается в Шумере / С.Н.Крамер. – Москва: Наука, – 1965. – с.17.

*«Azərbaycanda intibah və tərəqqi Avropadan daha erkən başlamışdır. XI-XII əsrlərdə böyük humanist sənətkarlar yetişmişdir»*[7].

VII-XI əsrlərdə müsəlman dünyasında elm geniş vüsət almışdır. 830-cu ildə yazdığı «əl-Kitabül müxtəsər hesab-ül cəbri və müqabilə» adlı kitabı ilə riyaziyyat elminin möhürünü vurmuş, Hind onluq say sistemini, bu gün də istifadə olunan alqorifm istilahı, loqarifm və «Alqebra» məhz 35 yaşlı Əl-Xarəzmin adı ilə bağlı olması, Fəxrəddin ər-Razi «Südrətül Müntəha» adlı əsəri ilə astronomiya elmindən, türk islam aləminin böyük oğlu Əbu-Reyhan əl-Biruni yerin cazibə qüvvəsini, yerin həm Günəş, həm də öz ətrafında fırlanmasından, (Koopernikdən 500 il əvvəl) kimya sahəsində Cabir İbn-Həyyan, ilk cərrah Qasım Əz-Zəşravi, tibb sahəsində «Qanun Ət-Tibb» əsəri ilə mikrobioloqlara və anatomik sahəyə aid tibbi məlumatları, xəstəliklərin yaranması və müalicəsini qələmə almış İbn-Sina, X əsrdə yaşamış Burhan Əd-Dinin «Şərh əl Əsbab» kitabında qanın, üzüm şəkərinin – qlükozanın şərhini verməsi, Türk, Xorasanlı, dövrünün görkəmli təbibi, filosofu, təlimçisi Əbubəkir Zəkəriyyə Ər-Razi «Kitab əl-Mənsuri», «Kitab əl-Havi» ("Xəstəliklər" və "Müalicələr») kitablarında mədə və onun funksiyası haqqında məlumatları, «Əxlaqi- Nasir» və 200-ə yaxın pedaqoji əsərləri ilə misilsiz sərvət sahibi Nəsrəddin Tusi, IX əsrdə yaşamış, hədis toplayaraq, hərflərin, nöqtələrin öyrənilməsi ilə bağlı, qiraət elminin yaranmasına aid «Səhih əl Buxari», «Ət-Tarix» kitabların müəllifi, türk İbn İbrahim Səmərqəndi olmuşdu.

XI əsrdə ədəbiyyat sahəsində güclü alimlər M.Kaşğari, Yusif Xas Hacib, Xətib Təbrizi, Qətran Təbrizi kimi mütəfəkkir, pedaqogika sahəsində İbn Sinadan sonra Azərbaycan filosofu Əbülhəsən Bəhmənyar İbn Mərzban əl-Azərbaycani və digər alimləri meydana gəldi.

ABŞ şərqşünası Q.E.Qrünebaum "Klassik İslam" əsərində yazır ki, *elm, memarlıq, tikinti, gəmiçilik və s. bütün sahələrdə Avropa həmişə Şərqə borcludur. O, islam mədəniyyətinin «Dörd dirək» ideyasının (Dünya dörd dirək üzərində durur: alimlərin hikməti, böyüklərin*

[7] Mustafayeva, R.Ş. Tərbiyənin humanistləşdirilməsinə dair // Azərbaycan məktəbi. – 1997, №3. – s.24-30

*ədaləti, dindarların ibadəti və qəhrəmanların şücaəti) Avropa universitetlərinin qapısı ağzında asıldığını da qeyd etmişdi*[8].

VII-VIII əsrlərdə Musa Şəhavət, İsmail Yassar, Əbül Abbas kimi şair və ziyalılarımız əxlaq, tərbiyə, mənəvi inkişaf haqqında müdrik və dəyərli fikirləri ilə tarixdə yaşamışlar.

A.A.Bakıxanov «Gülüstani-İrəm» əsərində yazırdı: *«Onlar hər bir əsrdə, hər bir ölkədə hörmətli və inanılmış kimsələr olmuşlar»*[9].

Azərbaycan alimləri Ə.Bərdici, alim, təbib əbu-Məad Xivəyyi, Əli Baba Bakuvi, Əbu Bəkr Marağı, Zəncani, Zaman Həmədani və s. olmuşdu. Məhz XI əsrdə dilimizin böyüklüyünü sübut edən Mahmud Kaşğarlının «Divani Luğat-it türk», Yusif Xas Hasibin «Qutadqu-bilik» (Xoşbəxtlik biliyi), Ədib Əhməd Yüknəkinin «Atabətül-Həqayiq» ("Həqiqətlərin astanasında") və s. əsərlər olmuşdur.

Əbu İshaq Şirazi, Urməvi Azərbaycani, Ə.əl-Dərbəndi, Ə. Beyləqani, Hafiz Mərəndi, İbn Makuli, Q.Təbrizi və X.Təbrizi XI əsr Azərbaycanda təhsil, tərbiyə və əxlaqla bağlı fikirlər söyləmişlər.

İbn Sinanın davamçısı Əbülhəsən Bəhmənyar, insan əxlaqını elm və fəlsəfə ilə bağlılığını sübut edir: *«Biliyə yol, xeyirxahlığa və xoşbəxtliyə yol deməkdir»*[10].

Türk dünyasının alimlərindən, ərəb dilində ilk ensiklopediyanın yaradıcısı, musiqi alətlərini tanıdan, fəlsəfə, riyaziyyat, tibb, botanika, musiqiyə aid mükəmməl işlər görmüş Əl-Fərabi əl-Türki idi. Alman alimi K.Şmidt onu *«Ulu müəllim»*[11] adlandırmışdı.

İbn Sinanın XI əsrdə söylədiyi ideyalar bu gün yeni təlim metodunun prinsipləridir: demokratikləşdirmə, humanistləşdirmə.

---

[8] Məmmədov, Z.C. Azərbaycan fəlsəfə tarixi / Z.C.Məmmədov. – Bakı: Bilik, – 1994. – 343 s.

[9] Bakıxanov, A.A. Gülüstani-İrəm / red. Ə.Ələsgərzadə. – Bakı: Az.SSR EA nəşriyyatı, – 1951. – 252 s.

[10] Бахманяр, А. Ат – тахсил (Познание) / А.Бахманяр. Книга 1-2 пер. с арабского вводная статья и комментарии А.В.Сагадаева. – Баку: Элм, – 1983. – 296 с.

[11] Шмидт, К. История педагогики и образования [в 4-ч томах] / К.Шмидт. – Москва: Типография Мартынова и К°, – т.1., – 2001. – 512 с.

XVII əsrin görkəmli ingilis filosof və pedaqoqu C.Lokk İbn Sinanı təkrarlamışdı.

XI əsrdə M.Kaşğari *türk xalqının böyüklüyündən, Tanrının dövlət günəşini türklərin bürclərindən doğurmasını, Türkü yer üzünün xaqanı və bütün xalqlardan üstün hesab etməsini «Divani-Lüğət-it Türkü»də qeyd etmişdi. O, türk dünyasının ilk xəritəsini hazırlamışdı*[12].

I fəslin ikinci paraqrafı "**Azərbaycan uşaq ədəbiyyatının inkişafı: keçmişi, dünəni, buğunu"** adlanır.

Dövrün ədəbi mənzərəsinin təhlili Xəqani, Nizami, Füzuli və s. görkəmli sənətkarların yaradıcılığında müşahidə olunur. N.Gəncəvi (1141-1209) vətənpərvər şair kimi yaradıcılığında insana, insanın cəmiyyətə və onu əhatə edən təbii mühitə münasibətini, ədalət və təbiət qanunları əsasında qurulmasını əsas tutmuş, əxlaqi dəyərləri, təlim-tərbiyəni önə çəkmişdi.

Əvhədəddin Əvhədi (1274-1338) Marağa rəsədxanasında uzun illər fəaliyyət göstərmiş, 1333-cü ildə yazdığı elmin himni sayılan "Cami-Cam" ("Cəmşidin Camı") əsəri ilə insan həyatının başlanğıcından axirətə qədər fikirləri qələmə almış, kədərə, şərə yox demişdi.

XIV əsr sənətkarlarından A.Ərdəbili(1311-1392) "Fərhadnamə" poemasında əməyə himn yaratmış, saf məhəbbəti, etibarı, sədaqəti alqışlamış, insanları eibarlı, sədaqətli olmağa səsləmişdi.

Ustad şair Ə.Təbrizi (1325-1390) "Mehr və Müştəri", "Saqinamə", "Qafiyələrin sayı haqqında təfsilat" adlı əsərlərində dostluğa, sədaqətə başqa kontekstdən yanaşmış, şəxsiyyət və insanlıq borcu kimi çatdirmağa çalışmışdı.

Azərbaycan uşaq ədəbiyyatında dərin mənalı fikirləri ilə həqiqəti, düzlüyü, insan vəfasını diqqətə çatdıran, unudulmayan şairlərdən biri də ibn İbrahim Həqaiqi Xaqani Şirvanidir. (1121-1199)

Bədii söz sənətinə, maraq göstərən və ana dilində gözəl şeirlər yazan qüdrətli şair, görkəmli dövlət xadimi, Şah İsmayıl Xətai (1486-1524), Azərbaycan mədəniyyətini yeni bir mərhələyə qaldırmış, yaradıcılığında uşaqların tərbiyəsinə xidmət edən fikirlərə də yer vernişdi.

---

[12] Hüseynzadə, R.L. Erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir .R.L. Hüseynzadə / – Bakı, Nurlar, 2007. – 336 s.

M.Füzuli (1494-1556) Azərbaycan ədəbiyyatında ədəbi məktəbin əsasını qoymuş, ana dilində yazdığı alleqorik üslubda ölməz əsərləri ilə uşaq və gənclərin tərbiyəsində xüsusi əhəmiyyət daşımışdı.

M.Əmani (1536-1610) Füzuli davamçısı kimi, şeir və divanları, xalq şeiri formalarında qoşma, gəraylı, bayatı və mənzum hekayələri ilə tərbiyəvi cəhətdən mükəmməl yaradıcılığa malikdir.

XVII-XVIII əsrlərdə qanlı müharibələr, xarici basqınlar və s. məlumatları Fədainin "Bəxtiyarnamə" poemasında, dərin humanizm, ideya məzmununa görə fərqliliyi Məsihinin (1515 – 1605) "Vərqa və Gülşa" əsərində, səadətini fədakarlıqla qazanmağa çalışmağı Sahib Təbrizinin (1601-1676) "Qəndəharnamə"sində, Əlican Qövsi Təbrizinin (1568-1640) mərdliyi, vətənpərvərliyi vəsf edən yaradiciliğinda tanış oluruq.

XVII – XVIII əsr ədəbiyyatında – Vaqifin əsərlərində humanizm, işıqlı ideyalar, realizm meylləri daha parlaq şəkildə verilmişdir.

F.Köçərlinin XX əsr uşaq ədəbiyyatının zənginləşməsində xüsusi xidməti olmuşdu. 1912-ci ildə "Balalara hədiyyə" adlı dərs vəsaiti tərtib etmiş, şifahi xalq ədəbiyyatının ən yaxşı nümunələrini toplamışdır.

*"Hər millətin özünəməxsus dili var ki, onun məxsusu malıdır. Ana dili millətin mənəvi diriliyidir...... Hər kəs öz anasını və vətənini sevdiyi kimi ana dilini də sevməlidir"*[13]. (Köçərli F. Yeni məktəb. "Tərəqqi" qəzeti, 1909, 1 sentyabr).

Azərbaycanda XIX əsrin ikinci yarısında böyük bir inkişaf yolu və maarifçilik ideyaları, S.Ə.Şirvani yaradıcılığından yan keçmir, *"Rəbiül-ətfal" (1877), "Tacül-kütub" adlı və şəriət dərsliklərinin tədrisi üçün isə "Əhvali-ənbiya" adlı dərsliklərini birləşdirərərk "Müntəxabat" adlı dərslik hazırlamışdı ki, bunu da nəşr etdirə bilmədi. 1895-ci ildə H.Z.Tağıyev tərəfindən çap olundu*[14].

Azərbaycan maarifçiliyinin inkişafında əvəzsiz xidmətlər göstərmiş, ensiklopedik biliyə malik olan, Abbasqulu Ağa Bakıxanov (1794-1847), «Təhzibül-əxlaq» əsərində və "Kitabi-nasayeh»

---

[13] Köçərli, F. Yeni məktəb // Tərəqqi qəzeti. – 1909, 1 sentyabr. – s.1.

[14] Xəlil, Z., Əsgərli, F. Uşaq ədəbiyyatı / Z.Xəlil, F.Əsgərli. – Bakı: ADPU, – 2007. – s.77.

(«Nəsihətlər») dərsliyində mənəvi-əxlaqi, pedaqoji məsələlər baxımından uşaq ədəbiyyatının təşəkkülü üçün əsaslı rol oynamışdır.

XIX əsrin birinci yarısında gənc nəslin təlim-tərbiyəsində, formalaşmasında Qasım bəy Zakir (1784-1857) yaradıcılığı, milli uşaq ədəbiyyatının təşəkkülünə təkan vermişdir. F.Köçərli, A.Şaiqə yazırdı: *«... Zakirin yazdığı təmsillərdə çox münasib hal və məqal deyilmiş atalar sözü, məsəllər və sırf türk ifadələri vardır ki, ərbabı nəzərində biri bir qızıla əvəzdir», "həqiqi bir milli şairdir. Öz dövrünün aynası hesab olunur"*[15].

XIX əsrin birinci yarısında yorulmaz fəaliyyət göstərmiş maarifçi-şair M.Ş.Vazeh (1792-1852) yaşadığı dövr ərzində milli uşaq ədəbiyyatımız üçün çox iş görmüş, gimnaziyanın fars dili müəllimi İ.Qriqoriyevlə birgə («Kitabı-türki») müntəxəbatını tərtib etmişdir.

Pedaqoji sahədə fəaliyyət göstərmiş şair Mirzə Nəsrullah Didə (1797-1875) mütərəqqi məktəblərin yeni dərsliyə, oxu materiallarına ehtiyacı görmüş və «Kitabül-nəsayeh» (1857) dərsliyini yazmışdı. Bu da dərsliklərin yazılmasında istiqamətləndirici rol oynamışdı.

İ.Qutqaşınlının (1806-1869) «Rəşid bəy və Səadət xanım» hekayəsi Azərbaycan realist nəsrinin ilk nümunəsi hesab olunur. Tənqidçi-ədəbiyyatşünas M.Əlioğlu (1928-1973) yazırdı: *«... Əslində hekayədəki sevgi xətti qəhrəmanların həyata baxışını, yeni əxlaqı fikirlərini şərh etmək məqsədilə göstərilmişdir»*[16].

Böyük mütəfəkkir M.F.Axundov (1812-1878) Azərbaycan ədəbiyyatını yeni istiqamətə yönəltmiş, *«...insanlığın uşaqlıq dövrü keçəndən sonra nəsihət və moizə yaramır»* demişdir. M.F.Axundov, *«ictimai ədalətə nail olmaq, həyatı yaxşılaşdırmaq üsulunu, elmdə və təhsildə, dinə, despotizmə və əcnəbi zülmə qarşı çıxmaqda, demokratiya və bərabərlik idealları uğrunda mübarizədə görür»*[17] .

Satira məktəbinin davamçılarından biri sayılan – Mirzə Ələkbər Sabir Tahirzadə (1862-1911) inqilabi-satirik şeirimizin

---

[15] Köçərli, F. Azərbaycan ədəbiyyatı: [2 clddə] / F.Köçərli. – Bakı: Elm, – c.1. –1978. – s.376.

[16] Əlioğlu, M. Tənqidçinin düşüncələri / M.Əlioğlu. – Bakı: Azərnəşr, – 1968. s.172.

[17] Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı. / F. Qasımzadə. – Bakı: Elm və təhsil, – 2017. – s.552.

banisi və bayraqdarı kimi, Azərbaycan mədəniyyətinin, maarifinin, bədii və ictimai fikrin tərəqqisində müstəsna rol oynamışdı.

Bəşər tarixində analoqu olmayan yeni bir dövlət quruluşu, bolşevik hakimiyyəti milli ədəbiyyatda təbii yaradıcılıq prosesinin ardıcıllığını pozdu. Əhməd Ağaoğlu, Əhməd Cəfəroğlu, M.Ə.Rəsulzadə, Almas İldırım, Hüseyn Baykara, Mirzə Bala Məmmədzadə, Əbdül-Vahab Yurdsevər və s. haqsız təqiblərə məruz qalaraq Vətən torpağından uzaqlarda yaşayıb yaratdılar.

1928-ci ildə AYC yaradıldı, üzv olmayanları, sürgün etdirir, güllələdirdilər. Milli məfkurəvi ideya, S.Hüseyn, S.S.Axundov, Ə.Cavad, C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, M.Müşfiq, B.Talıblı, B.Çobanzadə, S.Vurğun, A.İldırım, C.Cabbarlı, M.S.Ordubadi kimi yazarların yaradıcılığında yaşadı.

C.Məmmədquluzadənin(1866-1932) Azərbaycanda yeni bir yola istiqamət almış uşaq ədəbiyyatının inkişafında əməyi böyükdür. Hekayələri ilə realist uşaq nəsrinin əsasını qoymuşdur.

Azərbaycan maarifçiliyin inkişafını Rəşid bəy Əfəndizadə (1863-1942), elmin və mədəniyyətin yayılmasında görür, uşaq ədəbiyyatının inkişafına öz xidmətini əsirgəmirdi.

Abdulla Şaiq (1881-1956) 35 il müəllim işləmiş, "Əməkdar müəllim" fəxri adını qazanmış, proqramları, on iki dərsliyi ilə maarifin, təhsilin inkişafına təkan vermiş, Vətənin hər guşəsinin əzizliyini şeirlərində və hekayələrində ifadə etmişdi.

S.M.Qənizadə (1866-1937), yarım əsrlik pedaqoji və ədəbi fəaliyyətində uşaq ədəbiyyatında misilsiz iz buraxmışdır. M.Mahmudbəyovla birlikdə Bakıda oğlan uşaqları üçün yeni tipli ilk rus-müsəlman məktəbini açmış, "İstilahi Azərbaycan" (1889), "Kəlidi- ədəbiyyat" (1900) dərsliklərini hazırlamışdır.

Uşaq ədəbiyyatına biganə qalmayan, qiymətli miras qoyan, realist Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri də yazıçı Ə.Haqverdiyevdir (1870-1933).

Realist yaradıcılığa güclü meyl göstərmiş, uşaq ədəbiyyatının inkişafında əvəzsiz əməyi olan Abbas Səhhət (1874-1918), M.Mahmudbəyovla birlikdə "Yeni məktəb" (1909), "Türk əlifbası", "Gülzar", "İkinci il" adlı dərsliklər tərtib etmişdi.

XX əsr Azərbaycan uşaq ədəbiyyatı tarixində şöhrət qazanmış, 1908-ci ildə A.Şaiq və M.Mahmudbəyovla məşhur "İkinci il" dərsliyini tərtib etmiş, S.S.Axundov (1875-1939) bu sahədə ustad müəllim idi.

Azərbaycan ədəbiyyatının məhsuldar yazıçısı, dağ vüqarlı S.Rəhimov (1900-1983) "Aynalı", "Kəpəz", "Ana abidəsi", "Qardaş qəbri", "Ləpirlər" və s. əsərləri ilə uşaqların həyatında böyük rol oynamışdır.

Xalq yazıçısı Ə.Vəliyev (1901-1983), uşaqları unutmamış, onlara tərbiyəvi fikirlərini əsərlərindəki obrazların dili ilə çatdırmışdı.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli mütəxəssisi, respublikanın əməkdar elm xadimi, M.C.Paşayevin (1908-1978) gənc nəslin təlim-tərbiyəsi sahəsində böyük əməyi olmuşdur.

26 mart 1969-cu il tarixli «Sovet uşaq ədəbiyyatının gələcək inkişafı haqqında tədbirlər» adlı qərarı, Azərbaycan qələm sahiblərinin yaradıcılığına öz təsirini göstərirdi.

**II fəsil "Rus uşaq ədəbiyyatının inkişaf mərhələləri"** adlanır. Fəslin **2.1. "Rus uşaq ədəbiyyatına tarixi baxış"** yarımfəslində 700 illik bir dövrü əhatə edən, XVIII əsrə qədər «Qədim ədəbiyyat» adlanan rus ədəbiyyatı bir sıra xüsusiyyətləri ilə fərqlənir.

Hər bir xalqın həyatında baş verən dəyişiklik onun ədəbiyyatında öz əksini tapır. Slavyan və rus tayfalarının IX əsrdən əvvələ aid həyatı haqqında heç bir məlumat yoxdur. Yalnız X əsrdə rus letopisinə, XI-XII əsr rus salnaməsinə görə rus tayfaları Dnepr, Oka, Tripat, Volkov çayları ətrafında yaşamışlar.

Rus salnaməsi «İqor polku dastanı» rusu ən qüvvətli Avropa dövlətləri sırasında göstərirdi. Kiyev şəhəri qədim Rus dövlətinin mərkəzi olmuşdu. X-XI əsrlərdə bütpərəst olmuş, 988-ci ildə Rus yeni xristian dinini qəbul etmişlər. Bu dinin qəbul edilməsi rus mədəniyyətində böyük dönüşə səbəb olmuşdu.

Tarixi mənbələrə əsaslanaraq rus uşaq ədəbiyyatının inkişaf mərhələlərini dörd fəslə bölürlər:

I. Qədim rus uşaq ədəbiyyatı IX-XVII əsrlər

II. Rus uşaq ədəbiyyatı XVIII əsr

III. Rus uşaq ədəbiyyatı XIX əsr

IV. Rus uşaq ədəbiyyatı XIX əsrin sonu – XX əsrin əvvəli

Krılovun ilk təmsili 1788-ci ildə yazılmışdı. 1809-cu ildə çap olunan ilk kitabında 25 təmsil var idi.Rus və fransız dilində çap olunan 209 təmsilin hamısı uşaqların həyata baxışlarını formalaşdırırdı.

XIX əsrin II rübündə uşaq ədəbiyyatının inkişafının qəddar I Nikolayın dövrünə təsadüf etməsini A.Gertsen belə ifadə edirdi: *«Dərin kədər, bütün müdrük insanların qəlbini əsarətə aldı»*[18].

Ədəbiyyatçı, tənqidçi, akademik A.V.Nikitin (1804-1877) bu əzablı illərdə ciddi rejimin haqsızlıqlarını «Gündəlikdəki qeydlər» («Записках и дневниках») adlı əsərində yazırdı.

1832-ci il martın 30-da gənc şair N.M.Yazıkov Moskvaya müraciət etdi: *Mənim şeirlərim topluda çap olunmaq üçün işarələnmişdi. Buna görə senzura buraxmır. («У меня было намечение издать собрание моих стихотворений. Цензура не пропустила...»)*[19]

Bütün bu çətinliklərə, təzyiqlərə baxmayaraq, 1829-1854-cü illərdə nəşr olunan 862 kitabın 609-u orijinal, 353-ü isə tərcümə idi.

XIX əsrin II rübündə fəaliyyətə başlayan «Литературная газета»nın 108 nömrəsi çapdan çıxmışdı.

L.N.Tolstoy (1828-1910) 100-dən çox hekayə, nağıl, təmsil və dram əsərləri ilə uşaq ədəbiyyatı sahəsində özünəxas bir yaradıcılıq yolu açmışdı.

XIX əsrin sonu XX əsrin əvvəlində olan yaradıcılıq dövrünü, tədqiqatçılar belə adlandırmışdılar: *"Rusiyada azadlıq hərəkatının yeni üçüncü mərhələsinə keçid və proletariatın sona qədər yeganə inqilabi sinif olduğu dövr"(«... переход к новому, третьему этапу освободительного движения в России, когда «пролетариат, единственный до конца революционный класс»»)*[20]..

XIX əsrin sonlarında A.P.Çexov, (1860-1904) uşaqlar üçün yazdığı əsərləri ilə uşaq dünyasında L.N.Tolstoy yaradıcılığının davamçısı kimi imza atmışdı.

---

[18] Герцен, А.И. Собрание сочинений [в 30-ти томах] / А.И.Герцен. – Москва: Академия Наук СССР, т.8. – 1956. – с.210.

[19] Языков, Н.М. Свободотыслящая мера // – Москва: Стихотворение. Поэты. Жизнь Николая Языкова. – 1998. – с.217.

[20] Зубарева, Е.Е. Детская литература / Е.Е.Зубарева. – Москва: Высшая школа, – 1989. – с.141.

1901-ci ildə 3243 min, 1913-cü ildə isə 6000 min kitab, 1901-1917-ci 70 adda jurnal çap olunmuşdu. XX əsri buna görə «век ребянка» (uşaq əsri) adlandırırdılar.

Aleksandr Blok (1880-1921) 1913-cü ildə uşaqlar üçün «Сказки» ("Nağıllar"), «Круглый год» ("Bütün il") adlı əsərlərini uşaq folklorundan, klassik ədəbiyyatdan istifadə edərək yazmışdır.

S.Yeseninin(1895-1925), hazırladığı «Зарянка» (1914-1915) adlı topluda uşaqların həyat tərzini qələmə almışdır.

Qədim rus ədəbiyyatını yüksək qiymətləndirərək, M.Qorki yazırdı: *«Bizim qədim ədəbiyyatımızda öyrənməli şey çoxdur»*[21].

Rusiyada uşaq ədəbiyyatının inkişafının ağırlığı Belinski, N.Q.Çernişevski və N.A.Dobrolyubovun çiyinləri üzərində idi. «Семейные вечера» (1859-1874) ("Ailəvi axşamlar") adlı uşaq jurnalını alqışlayan Babuşkin yazırdı: *"Kim dini-ictimai əxlaqa qarşı düşmənçilik edirsə, o, bir binanın sütünlarını laxladıb, özünü də həmin binanın altına atan adama bənzəyir"*[22].

**"Rus uşaq ədəbiyyatının mərhələli inkişaf dövrü"** yarımfəslində uşaq ədəbiyyatının inkişaf yolu və tarixi, sovet ədəbiyyatının etapları ilə üst-üstə düşür.

Yeni dövrün inkişafı KP XX qurultayının keçirilməsi illərindən başlayır, 80-ci illərə qədər davam edir. Sovet uşaq ədəbiyyatı M.Qorkinin, A.Serafimovun, A.Nevrovun, V.Mayakovskinin, K.Çukovskinin çiyinlərində pərvazlandı. 1918-20-ci illərdə uşaqlar üçün 72 adda kitab çap olunmuşdur. Bura rus və xarici klassiklərin əsərləri toplanmışdır.

1919-20-ci illərdə M.Qorki sovet dövründə ilk uşaq jurnalı «Северное сияние»də («Şimal parlaqlığı»), «Яшка» («Yaşka»), V.Şişkova «Зеркальце» («Güzgüçü»), A.Çapgina «Лито звезд» («Ulduzun yanına») və s.əsərlər nəşr edildi.

1922-ci ildə RKP (b) XI qurultayında xüsusi gözlənilməyən bir qərar qəbul edildi: *«Литературы для рабоче-крестьянской молодежи, которая могла бы быть противопоставлена*

[21] Горький, М. Сборник сочинений / М.Горький. – Москва: Художественная литература, – т.27, – 1953. –с. 166.

[22] Бабушкин, А.П. История русской детской литературы / А.П.Бабушкин. – Москва: Учпедгиз, – 1948. – с. 249.

*влиянию на юнощество со стороны парождающейся вульварной литературы и содействовать коммунистическому воспитанию юношеских масс»*[23].

1930-cu ildə Yazıçılar İttifaqı yaradıldı. 1934-cü ildə isə I Ümumrusiya yazıçılar qurultayı çağırıldı. S.Y.Marşak «О большой литературе для маленьких» adlı məruzəsi ilə çıxış etmişdi.

«Тимур и его команда» ("Timur və onun komandası"), «Два капитана» ("İki kapitan"), «Черемыш – брат героя» ("Çeremış qəhrəmanın qardaşıdır") və s. əsərlər bu fikirlərə layiqli misaldır.

Müharibə illərinə təsadüf etməsinə baxmayaraq, uşaq ədəbiyyatının inkişafı ümumi bir məsələyə çevrilmişdi: «Общество ждет от писателя художественных открытый, правды жизни, которая всегда была сутью настоящего искусства»[24].

Yazıçılar İttifaqı, Akademiya, Uşaq və Gənclər nəşriyyatı, Moskva uşaq evi və onun Leninqraddakı filialı illik «Детская литература» jurnalını çap edirdilər.

1959-cu ildə Yazıçıların III qurultayında yazıçı A.Surikov öz çıxışında bütün məsələlərə cavab verdi

1967-ci ildə Ümumisovet yazıçılarının IV qurultayında S.Mixalkov, 1970-ci ildə A.Barto Rusiya Federasiyasının III yazıçılar qurultayında, 1980-ci ildə RF yazıçılarının V qurultayında S.Mixalkov uşaq ədəbiyyatı haqqında çıxış etdilər.

SSRİ Yazıçılar İttifaqının VIII qurultayında (1987) yazıçıların və tənqidçilərin qarşısında belə bir tapşırıq qoyuldu: *«Никогда не отгораживатся от тревог современного мира, от жизни нашего народа... Откликаясь на программные требования партии, каждый из нас должен настойчиво и целеустремленно выявлять творческие резервы метода социалистического реализма, самоотверженно служить повышению идейно-художественного качества литературы, ее воздействия на жизнь»*[25]

---

[23] КПСС в резолюциях и решениях съездов, конференций и Пленов ЦК / – Москва: Политиздат, – 1970, – т.2, – с.362-363.

[24] Материалы XXVII съезда КПСС / – Москва: Политиздат, – 1986. – с. 90.

[25] Восьмой Съезд писателей СССР. Стенографический отчет / – Москва: Советский писатель, – 1987. – 501 с.

II fəslin üçüncü yarımfəslində **“Azərbaycan və rus yazıçılarının yaradıcılığında uşaq ədəbiyyatı ilə bağlı qarşılıqlı ədəbi əlaqələr”də** qeyd olunur ki, Azərbaycan uşaq ədəbiyyatı mürəkkəb, tarixi bir dövr keçirmişdi. XX əsrin əvvəllərində Ana dilimizin tədrisi və milli dərsliklərin bu sahədə rolu böyükdür. Rus yazıçılarının bəzi əsərləri dərsliklərdə istifadə olunmuşdur. S.A.Krılovun təmsilləri, A.S.Puşkinin nağılları, M.Y.Lermontovun şeirləri, L.Tolstoyun hekayələrindəki humanist ideyaları təkanverici qüvvə hesab etmişlər.

Görkəmli rus tənqidçisi V.Q.Belinski (1811-1848) bu dövrün ədəbi prosesini təhlil edərək yazırdı: *“Elə buna görə də hamı haqlı olaraq Lomonosovu rus ədəbiyyatının atası hesab edir”*[26].

Azərbaycan-rus ədəbi əlaqələrinin yaranma tarixi Rusiya-İran müharibəsindən sonraya təsadüf edir.

XIX əsrdə S.Qriqoryevlə birlikdə M.Ş.Vazeh iki hissəli «Müntəxabat» hazırladı. Bu da ilk milli dərsliklərdən sayılır.

Şərq mövzusu, müsəlmanların həyatı A.Mitskeviçin «Krım sonetləri»ndə, A.S.Puşkinin «Krım», «Qafqaz», «Qurana təqlid», Lev Tolstoyun «Hacı Murad» və digər ədiblərin yaradıcılığında mühüm yer tutur. Qafqaz müharibəsində iştirak etmiş A.Qriboyedov, A.Puşkin, M.Lermontov, A.Bestujev-Marlinski, A.A.Fok, M.S.Puşin, V.S.Tolstoy, Z.Q.Çernişov, E.E.Laçınov, P.M.Leman, S.Q.Burtsov və b. bu haqda bədii, publisistik əsərlər, qeydlər, məktublar yazmışlar.

Azərbaycan-rus ədəbi əlaqələrinin tədqiqatçısı prof. M.Z.Sadıxov göstərirdi ki, Qafqaz müharibəsinin iştirakçısı qraf S.F.Paskeviç, *«rus romantik şairlərinin o şeirlərini bəyənirdi ki, orada insanlar arxa plana keçir, mərkəzdə isə onun hərbi şücaəti təsvir olunurdu»*[27].

A.S.Puşkin və M.Y.Lermontov yaradıcılığında rus-müsəlman mətni həm məzmun, həm də poetik cəhətdən mükəmmələşir, rus ədəbiyyatının ayrılmaz tərkib hissəsinə çevrilirdi.

---

[26] Belinski, V.Q. Seçilmiş məqalələr / tərc.ed. M.Rzaquluzadə, red. Q.Musayev. – Bakı: Uşaqgəncnəşr, – 1948. – 140 s.

[27] Садыхов, М.З. Очерки русско-азербайджанско-польских литературных связей XIX века / Садыхов М.З. – Баку: – Азернешр, – 1975. – с.54.

Bestujev-Marlinskinin Qafqaz müsəlmanlarının təsvir olunduğu mühüm əsərləri "Ammalat bəy" (1831) və "Molla Nur"dur (1836).

Uşaq ədəbiyyatının inkişafına güclü təkan verən, A.S.Puşkin yaradıcılığında «Tilsim» və «Qərib» şeirində müsəlman və rus ənənəsinin iki tipinin kəsişməsi diqqətəlayiqdir:

*«Nə edəcəm? Başıma nə gələcək?»*[28]

80-90-cı illərdə Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli, Əhməd Cavanşir, Məmmədsadıq Əfəndiyev Puşkindən tərcümələr etmiş, yaradıcılıqlarında və məqalələrində sitatlar gətirmişlər.

1937-ci ildə Azərbaycan və rus ədəbi əlaqələrinin bir daha bariz nümunəsi olaraq «Kapitan qızı» (M.Ənvər), «Tunc atlı» (Ə.Cavad), «Qara toxmaq qız» (M.Cabbar), «Ərzuruma səyahət» (R.Mikayıl), «Balıqçı və balıq nağılı» (M.Seyidzadə), «Qaraçılar» kimi əsərləri tərcümə olunaraq nəşr olunmuşdu. Puşkinin «Yevgeni Onegin», «Nağıllar», «Dubrovski» kimi əsərləri də Azərbaycan və rus ədəbi əlaqələrinin yaranmasına, formalaşmasına səbəb olmuşdu.

Cəmisi 43 il yaşamış Nikolay Vasilyeviç Qoqolun əsərləri Azərbaycanda ədəbi prosesin inkişafını istiqamətləndirmişdir.

İvan Sergeyeviç Turgenev, rus bədii nəsrinin yeni realist zirvəyə yüksəlməsinə və müasirlərinin yaradıcılığına təsir etdi.

N.S.Leskov yaradıcılığı, digər ədiblər kimi Azərbaycan uşaq ədəbiyyatına, həyat materiallarının zənginliyi, genişliyi, bədii cəhətdən səciyyəviliyi baxımından müsbət təsir göstərmişdi.

XIX əsr rus ədəbiyyatı Lev Tolstoy yaradıcılığı və Qafqazda yerli xalq nümayəndələrinə həsr olunmuş əsərlərinin də rolu olmuşdur.

A.Divanbəyoğlunun «Allah xofu», «Fəhlə» hekayələri, S.S.Axundovun «Nurəddin», R.Əfəndizadənin «İnsanlar bir-birinə möhtacdır», S.Musabəyovun «Rəhmdil arvad», C.Bünyadzadənin «Kamil və Aqil», R.Mehrəlibəyovanın «Rəhmdil insan» və s. əsərləri bu təsirlərdən bəhrələnmişdir.

V.Q.Korolenkonunda yaradıcılığı Azərbaycanda uşaq ədəbiyyatinin inkişafına güclü təsir etmişdi.

---

[28] Сахаров, В.И. Поэзи и «дети вдовы». Новое о масонских связах А.С.Пушкина (по архивным материалам): [электронный ресурс] / URL: http://www.masonry.ru/articles/a1.htm

XIX əsrin ortalarında Rusiyada və Avropada məşhur olan ilk Azərbaycan dilçisi, professor Mirzə Kazım bəyin yaratdığı qrammatika kitabları rus ziyalılarına misilsiz xidmət göstərmişdi. Mirzə Kazım bəy demişdir ki, rus ziyalıları hələ Şərq ədəbiyyatı gülzarından çox az çiçək qoparmışlar.

M.Qorkinin yeni uşaq ədəbiyyatı yaratmaq istəyi, 1932-1941-ci illərdəki "Detskaya literatura" jurnalı da uşaq ədəbiyyatının inkişafına böyük təkan verdi.

1990-cı ildə SSR xalqları müəyyən təsirdən, hadisələrin vüsətindən ayrıldılar. Bu, çürük, mənasız, yalnız vərəq üzərində yaşayan Sovet hökuməti yıxıldı.

**III fəsil "Azərbaycan və rus uşaq nəzminin ədəbi poeziyada yeri" adlanır.** Ümummilli liderimiz Heydər Əliyev demişdir: *"İnsanlara şeir qədər, ədəbiyyat qədər, güclü təsir edən, insanlığın mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur"*[29].

**"Azərbaycan uşaq poeziyasının yaranması" adlı yarımfəsildə** " VII əsrə qədər ədəbiyyatımız və mədəniyyətimiz müxtəlif inkişaf dövrləri haqqında söz açılmışdı. Həyatımızada olan varlıqların bədii təsviri ədəbiyyatdır. Poeziyanın tarixi elə ədəbiyyatımızın tarixidir. Poetik ruha köklənən türk ədəbiyyatının on iki min illik tarixi vardır. Azərbaycanı işğal edən ərəblər, bütün maddi və mənəvi nişanələri məhv etmiş, tarixi sənədləri, ədəbi materialları yandırmışlar.

*"Ərəb dili, orta əsrlər ədəbiyyatı – müxtəlif xalqların birgə yaratdığı, inkişaf etdirdiyi və formalaşdırdığı mədəni irsdir. Bu irsin əsas yaradıcılarından biri də Azərbaycan xalqı olmuşdur"*[30].

VII-VIII əsrlərdə yaşayıb yaratmış və məvali (ərəblərin təsirini zorla qəbul etmiş) şairlər adlanan təfəkkür sahibləri, Azərbaycanlı zövqü, ruhu, təfəkkürünü ərəbdilli poeziyada yüksəltmiş, müstəqilliyə ucaltmışlar.

"(Qələm) öz ucu ilə nə qədər qəddar düşmənləri məhv etmişdir?!" (Mənsur Təbrizi).

---

[29] şerqqapısı.az

[30] Azərbaycan ədəbiyyatı tarixi / Bakı: Az.SSR EA – c.1. – 1960. – 588s.

XIII-XIV əsrlərdə monqol əsarəti Azərbaycana ağır dövr yaşatmış, mədəniyyətimizi, ədəbiyyatımızı məhv etmişdir.

XIII-XV əsrdən artıq ədəbiyyatımız milli dildə inkişaf edir, XVI əsrdə yüksək zirvəyə çatır. Təbrizdə yaşayıb yaradan Həbibi, Kişvəri, üç dildə əsərlər yaradan Şah İsmayıl Xətai, XVI əsrin ən görkəmli şairi Füzuli Azərbaycan poeziyasının inkişafında müsbət rol oynamışdılar.

XVII əsrdə artıq şifahi xalq ədəbiyyatı da güclü surətdə inkişaf edirdi. XVIII əsr Azərbaycan lirikasının yaradıcılıarı Vaqif, Vidadi, Xəstə Qasım, Ağa Məsih, Nicat kimi sənətkarlar yetişmişdi.

XIX əsr ədəbiyyatımızın tarixi yolu zəngin, məhsuldar, eyni zamanda ziddiyyətli bir dövr kimi qiymətləndirilir.

XIX əsrin ikinci yarısında aşıq poeziyası və qəzəl şairlərinin sayı artır: S.Ə,Şirvani, X.Natəvan, Kəminə, M.Ə.Növrəs, B.Şirvani, Xalxali və s. Qarabağda, Bakıda, Şamaxıda, Ordubadda, Lənkəranda şeir məclisləri fəaliyyət göstərirdi. Davamçıları M.Ə.Sabir, M.Hadi, Q.Zakir, A.Şaiq, A.Səhhət, R.Əfəndiyev və d. olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə köklü dəyişikliklər baş verdi. Bakı Dövlət Universiteti fəaliyyətə başladı, 92 adda (42 türkcə, 44-rusca, 6-ı isə başqa dillərdə) qəzet və dərgilər çap olundu.

F.Köçərlinin “Balalara hədiyyə” adlı müntəxabatı ən gözəl dərs vəsaiti hesab olunurdu. Vətənin və xalqın nicatını maarifçilikdə görən ziyalılarımız, XX əsrin ilk onilliyində Azərbaycan pedoqoji fikir tarixində əsaslı rol oynayan, məktəblər üçün uyğun dərsliklər, vəsaitlər hazırladılar.

Sosialist rejiminin gəlişi, yenicə qurulmuş Xalq Cumhiriyyətini dağıtdı. 1953-cü ilə qədər güclü təqiblər və repressiyalar uşaq poeziyasına güclü zərbələr endirdi.

1962-ci ildə oktyabrın 24-də AYİ-nın çağırdığı müşavirədə Azərbaycanda uşaq ədəbiyyatının vəziyyəti müzakirə olunmuşdu. Azərbaycan yazıçılarının 1976-cı ildə keçirilən VI qurultayında “İki qurultay arasında Azərbaycan uşaq ədəbiyyatı” mövzusunda M.Cəfərov çıxış etmişdi.

Siyasi mübarizələrin təlatümlü bir dövründə Yazıçılar Birliyi, Xalq Təhsili Nazirliyi ilə birlikdə 1992-ci il sentyabrın 25-də “Uşaq

ədəbiyyatının problemlərinə dair konfrans keçirdi. Konfransda məruzəçi Q. Namazov çıxış edərək problemlərdən söz açdı.

III fəslin **ikinci yarımfəsli "60-80-ci illərdə Azərbaycan uşaq poeziyasında M.Dilbazi, N.Rəfibəyli və X.Əlibəylinin rolu"** adlanır.

60-cı illərin əvvəllərindən başlayaraq ədəbiyyatımızı zənginləşdirən poeziya nümunələri yarandı. Xalq yazıçısı Anar bu məsələyə dair mülahizələrində bu məqamı aydın şəkildə göstərərək deyir: *"Bizim 60-cı illər nəsli içərisindən öz tənqidçilərimiz yetişmədi ....... Bədii ədəbiyyatın istər nəsr, istərsə də poeziya qolları hər halda bacardığını edə bildi"* [31].

N.Şəmsizadə bu cür fikri ilə: *"Təxminən min il – IX əsrdən XIX əsrə qədər Azərbaycanda ədəbiyyat şeir şəklində - lirik növdə mövcud olub"*[32]poeziyanın tarixinə aydınlıq gətirdi.

V.Yusifli də 60-cı illərin poeziyasına fərqli yanaşmışdır: *"60-cı illərin şeirində üslubun polifonizmi xüsusilə diqqəti cəlb edirdi. Fərdi üslublar get-gedə püxtələşir, poeziyada rəngarənglik yaradırdı"*[33].

1960-80-cı illərdə Azərbaycanda mədəniyyətin, maarifin və ədəbiyyatın ilk quruculuq illərinin qaranquşları R.Rza, N.Rəfibəyli, M.Dilbazi, Ə.Cəmil, M.Rzaquluzadə, M.M.Seyidzadə, T.Elçin, T.Mahmud, X.Əlibəyli, Ə.Cəmil, F.Sadıq və s. ədəbiyyatda izlər buraxmış söz ustaları idi.

Əli Kərim, X.R.Ulutürk, M.Araz, N.Həsənzadə, Fikrət Qoca kimi parlaq istedad sahibləri yeni epoxanın milli estetik ehtiyaclarından çıxış edirdilər.

M.Dilbazi uşaq yazarı kimi, sənətkarlığa diqqət yetirmiş, məqsədinə nail olmuşdur. O,"Qoçaq ataların qoçaq övladlarına" məqaləsində yazırdı: *"Gözəl uşaqlar! Sizin gözəl gələcəyiniz var. Mən səhər günəşinə baxdığım zaman həmişə sizi xatırlayıram. Siz bahar sabahı günəşin necə çıxdığını görmüşsünüzmü? Bu çox*

---

[31] Müasir Azərbaycan ədəbiyyatı / – Bakı: Bakı Dövlət Universiteti, – c.1.– 2007. – s.6.

[32] Şəmsizadə, N. Ədəbiyyat nəzəriyyəsi / N.Şəmsizadə. – Bakı: Ozan, – 2012. – s.15.

[33] Müasir Azərbaycan ədəbiyyatı / – Bakı: Bakı Dövlət Universiteti, – c.1.– 2007. – s.6.

*qəribədir; üfüqdə o qədər gözəl rənglər olur ki, bunu söz ilə demək mümkün deyil. Günəşdən elə xoş bir istilik gəlir ki, bunu ancaq görmək yox, həm də duymaq lazımdır. Quşlar elə tezdən durub civildəşirdilər ki, elə bil hamısı günəşi salamlayır. Sizin gələcəyiniz də ilk bahar sabahı kimi gözəldir"*[34].

M.Dilbazinin uşaqlara olan münasibətini şeirlərində və kitablarında müşahidə edirik.

Yaradıcılığa təzə başlayanda, əsərləri ilə yaxından tanış olan görkəmli nasir M.S.Ordubadi: *"Azərbaycan şeirinə balaca Məshəti gəlmişdir"* [35]- demişdir

Şairənin uşaqlar üçün yazdığı gözəl şeirləri "Aişənin anası", "Ömür quşu", "Gənc qızın yuxusu", "İlk bahar", "Qaranquş", "Çiçək fəsli" və s. uşaqların həyatında, mənəvi dünyasında ən gözəl yerlərdən birini tutur.

Zahid Xəlil haqlı olaraq söyləyir: *"M.Dilbazinin uşaq şeirlərinin və nağıllarının dili klassik həddə, sadə və plastikdir, yüksək ustalığı ilə fərqlənir, balaca oxucuların məhəbbət, rəğbətini qazanır"*[36].

M.Dilbazi, sanki Azərbaycan adlı bir dünyamızın nənəsi idi.

*"Təbii axıcı dilə malik olan bu hekayələr mənsur şeiri xatırladır"*[37].

Poetik nümunələrdə, vətən sevgisi, doğma yurdun gülü-çiçəyi, qazanılan əmək uğurları, qələbə sevinci, ürəkdən gələn kövrək qanadlı arzular səs salmaqdadır. Bura lap boz çöllərdən, sıldırım qayalıqlardan ibarət olsa da gözəldir, çünki bura -Vətəndir. Burada yaşamaq - Ömürdür. Bu gələcəyin sahibləri olan uşaqların tərbiyəsinin nağılıdır, dastanıdır, eposudur.

Nigar Rəfibəyli haqqında da burada geniş məlumat verilir. «Çadra» adlı ilk əsəri 1928-ci ildə «Dan ulduzu» jurnalında, 1934-cü ildə ilk kitabı «Şeirlər» adı altında çap olunmuşdur.

---

[34] Əhmədova, Ə.Y. Bu ellərə vurulmuşam / Ə.Y.Əhmədova. – Bakı: Yazıçı, – 1978. – s. 43.

[35] Xəlil, Z., Əsgərli, F. Uşaq ədəbiyyatı / Z.Xəlil, F.Əsgərli. – Bakı: ADPU, – 2007. – s.186.

[36] Xəlil, Z., Əsgərli, F. Uşaq ədəbiyyatı / Z.Xəlil, F.Əsgərli. – Bakı: ADPU, – 2007. – s.190.

[37] Yenə orada, – s.192.

Nigar Rəfibəyli 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1967-ci ildə Azərbaycan SSR əməkdar mədəniyyət işçisi, 1980-ci ildə "xalq şairəsi" adına layiq görülmüşdü.

Şairə daxilən öz şairlik məni, istedadı ilə təbii və lirikdir, onun yaradıcılığında təbiətə, insanlara, gözəlliyə, təmizliyə nəğmə qoşan bir ürəyin çarpdığını görürük."Tahir və Şahnabad" şeirində çox gözəl tərbiyəvi fikirlərə, mətləblərə poeziyanın gücü ilə toxunmuşdur.

Əlli illik ədəbi fəaliyyətinin məhsuldarlığını Anar öz qeydlərində qələmə alır və göstərir ki, anam yaza biləcəklərinin yüzdə birini yaza bilmədi. Ailə borcu, analıq vəzifəsi, böyük evin qayğıları, onun yaradıcılığına mane oldu.

Poeziya aləmində söz sahibi olmuş şairə xanımın 35 kitabının içində uşaqların da payı vardı. Uşaqlara sevgisini, qayğısını bildirdiyi bu şeirlər "İşıqlı dünyam", "Balaca qəhrəman"(1942), "Günəşin cavabı" (1966), "Məstanın balaları"(1968), "Bizə bahar yaraşır" (1978) adlı kitablarındadır. Onun özünəməxsus, ifadə tərzi, həzin üsyanı vardı, lakonik, aydın, başa düşüləcək şəkildə yazırdı.

B.Nəbiyev ".onun könül aləminin pəncərəsi isə dünyaya, canlı aləmə açıq idi. - ifadəsi ilə N.Rəfibəyli yaradıcılıgını qiymətləndirmişdir.

N.Rəfibəyli, uşaqlardan yan keşməz, uşaqlığını unutmaz, həyatına gözəllik, ömrünə çıraq, bir qucaq bahar günəşi kimi sevdiyi balalarını da paysız buraxmazdı. Məktəb yaşı çatmamış uşaqlarada payı vardır.

O, gah çişəklərdən – güllərdən, gah şirin şəkər dillərdən, gah qəlbi gözəlliklə dolu çöllərdən, gah da qəhrəman oğullar, qızlar böyüdən ellərdən söz açdı.

B.Nəbiyev "..onun könül aləminin pəncərəsi isə dünyaya, canlı aləmə açıq idi. - ifadəsi ilə N.Rəfibəyli yaradıcılıgını qiymətləndirmişdir.

"Fəxr edirəm ki, anamın şeirlərini bu gün də uşaqlar sevə-sevə oxuyurlar. O, hər gələn uşaqlarla yenidən doğulacaq, müstəqil Azərbaycanın körpə nəsilləri onun "Dovşanın ad günü"ndə iştirak edəcək."- bu sözlər şairənin qızı Abdullayeva Gülər demişdi.

Hər dəfə körpələr X.Əlibəylinin sözlərinə yazılmış mahnıları: "Armud" musiqisi Şəfiqə Axundova, "Qonaqlıq" musiqisi Oqtay

Zülfüqarov, “Günəş olaram mən də” musiqisi Hökumə Nəcəfova - dinləyəndə, “İnci”, ”Dənizim Xəzər”, “Qaranquşun sevinci”, “Mənim beş qardaşım var”, “Mənə nə”, “Aman ovçu”, “Şaxta baba”, “Yağış yağır”, “Bir şaftalı”, “Yalançı xəstə”, “Məni günəşə at” və s. şeirlərini oxuyanda, “Aycan”, “Cunquş”, “Dovşanın ad günü”, “Gözəllər gözəli”, “Durnalar lələk salır” ,“Meyvələrin şahı”,“Kənd həkimi” və s. pyeslərini izləyəndə uşaq ədəbiyyatının “xanım anası”(B. Nəbiyevin təbirincə desək) xatırlanacaq.

X.Əlibəylini, M.Dilbazi və M.Rzaquluzadənin zəmanəti ilə Yazıçılar İttifaqının üzvülüyünə qəbul etmişlər. İlk kitabı 1955-ci ildə “Balaca həkim” adı ilə 30.000 nüsxə tirajla çap olunmuşdu. Ömrünü uşaq ədəbiyyatının inkişafına həsr etmiş X.Əlibəyli 1991-də Əməkdar İncəsənət Xadimi adına, Azərbaycan SSR-in Dövlət mükafatına, 1998-ci il “İlin qadını” adını almaq şərəfinə nail olmuşdu. 1972-ci ildə Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı ilə mükafatlandırılmış, 1999-cu ildə Ümummilli Liderimiz Heydər Əliyev prezident təqaüdünü təqdim etmişdi.

Ədəbi fəaliyyətə uşaq şeirləri ilə başlamış X.Əlibəyli, bütün əsərlərini asan, uşaqların anlayacağı bir dillə ömrünün son gününə qədər davam etdirmişdi.

Uşaq ədəbiyyatının yollarına çıraq tutan fədaimiz, Xanımana Əlibəyli yaradıcılığının əsas özəyini təşkil edən mənəvi dəyərlər, ədəb-ərkan, hörmət-izzət və sadiqlik olmuşdur.

Uşaqların xanım anası, Xanımana, peyğəmbər xislətli bir ağbirçək, şeirləri ilə xeyir-dua vermiş, gələcəyimizə böyük ümidlə baxmış, Xanım anamızın narahat ruhu dincəlsin, şad olsun ki, Qarabağ Azərbaycandır!

III fəslin **üçüncü yarımfəsli “XX əsrin 60-80-cı illərində rus uşaq poeziyası: Aqniya Lvovna Barto, Yelena Aleksandrovna Blaginina, İrina Petrovna Tokmakova ”** adlanır..

Görkəmli rus tənqidçisi, ədəbiyyatçısı Vissarion Belinskinin yaradıcılığında uşaq poeziyasının inkişafına xüsusi diqqət vardı: *“Kitab bizim zəmanənin həyatıdır. Ona hər kəs, eləcədə - uşaqlar ehtiyac duyurlar. Bütün məsələ onlar üçün kitab seçməkdədir və*

*birinci olaraq biz bu fikirlə razılaşırıq ki, yanlış seçilmiş kitabı oxumaq onlar üçün heç nə oxumamaqdan pis və zərərlidir"*[38].

Rus yazıçısı Korney İvanoviç (Nikolay Vasilyeviç Korneyçukov) Çukovskinin bir sıra şeir, poema və nağılları rus uşaq ədəbiyyatının Qızıl Fonduna daxil edilmişdi. O, nağıl ustası və uşaq ədəbiyyatı nəzəriyyəçisi idi.

Puşkinin nağılları, Krılovun təmsilləri böyüklər üçün yazılsa da, uşaqlar tərəfindən də məhəbbətlə qarşılanmışdır, bu gün də öz əhəmiyyətini itirməmişdi.

M. Svetlavinin mənəvi aləminin ədəbi düstürü: "*İnsan, insana dost və qardaşdır"* devizidir. Onun yaradıcılığı bu sahəyə xidmət edir[39].

Tarixin bütün zamanlarında, böyük, dahi insanlar, cəmiyyəti oxumağa, mütaliəyə çağırıblar. Görkəmli rus yazarı A.P.Çexov deyirdi ki, sonsuz mütaliə gərəklidir. Mütaliə uşaqları və yeniyetmələri insan kimi formalaşdırmağa qadirdir.

A.Bartonun fikirləri, bu gün də aktualdır: *"Mən deyərdim ki, uşaq yazıçısının, xüsusən, güclü müasirlik hissinə malik olması zəruridir. Axı o, gələcəyin adamının xarakterini formalaşdırmaq üçün yazır"*[40].

Uşaq ədəbiyyatı tərbiyə işidir. "Ədəbiyyat – həyat dərsliyidir". Tərbiyə isə çox böyük işdir.

Rus uşaq poeziyası və ədəbiyyatının görkəmli siması, 20 ildən artıq Rusiya Federasiya Yazıçılar İttifaqına rəhbərlik etmiş Sergey Mixalkov (1913-2009) "Hər şey uşaqlıqdan başlanır", (1968) "Zamanın əlamətləri" (1976) və s. kitablarındakı əsərləri ilə gənc nəslin tərbiyəsinə xidmət edir. 1962-ci ildən "Fitil" satirik jurnalının baş redaktoru olmuş S.Mixalkov, SSRİ-nin, 2001-ci ildə isə müstəqil Rusiyanın himnlərini yazmışdır.1943-ci ildə himni Stalin bəyənəndən sonra məşhurlaşmışdı.

Sovet uşaq ədəbiyyatının yaradıcılarından sayılan Samuil Marşak (1887-1964) uşaq ədəbiyyatında klassik əsərlər müəllifi kimi məşhurlaşmışdır.

---

38 Belinski, V.Q. Seçilmiş məqalələr / tərc.ed. M.Rzaquluzadə, red. Q.Musayev. – Bakı: Uşaqgəncnəşr, – 1948. – s.8.
39 az. strategiya.az
40 Барто, А. // Литературная газета. – Москва: – 1978, 17 мая. – с.3.

Rus uşaq ədəbiyyatı dünya mədəniyyətinin zəngin kapitalıdı.

Nikolay Dobrolyubov yazırdı*: “Ümumi təsvirə ehtiyac yoxdur – uşaqlara müəllifin ümumi mühakimələrinin deyil, canlı duyğularının hopdurduğu konkret həyat mənzərələri təqdim etmək lazımdır*”[41].

Uşaq ədəbiyyatında zəhməti, gözəl fikirlərin ifadəsi ilə məşhurlaşmış Aqniya Lvovna Barto *(Getel Seybovna Volova)* (1901-1981), Moskva yaxınlığında Kovna qəsəbəsində yəhudi ailəsində anadan olmuş, atası Lev Nikolaeviç həkim, anası evdar qadın idi.

A. Barto həm gimnaziyada, həm də balerina məktəbində oxuyurdu. 1924-cü ildə keçirilən tədbirdə şeir deyən Bartonu Rusiyanın ilk maarif naziri Lunaçarski yanına çağırır və uşaq yazarı olmağı təklif edir. 1936-cı ildə çap olunmuş “Игрушки” (“Oyuncaqlar”) adlı kitabından sonra Barto çox məşhurlaşmışdı.

Hər zaman uşaqların arasında olan Aqniya Barto, onların arzu və düşüncələrini əks etdirdiyi 30-dan çox kitab çap etdirmişdi. O, 1947-ci ildə yaxınlarını itirən, ana-ata qırıqlığı yaşayanlara kömək etməyə başladı.

A.Bartonun yaradıcılıq nümunələri, tək Rusiyada deyil, Azərbaycanda və digər xarici ölkələrdə də dəfələrlə çap olunmuş və sevilmişdi.

Yelena Aleksandrovna Blagina (1903-1989 ) 1913-23-cü illər arasında Kursk Marina gimnaziyasını, sonra Pedaqoji İnstitutu bitirmişdi. 1923-cü ildə Moskvaya gəlmiş, 1925-ci ildə V.Y.Bryusova adına partiya məktəbini oxumuşdu. Bir neçə il “Известия” qəzetində işləmişdi. Şair Obolduevlə evlənir.

1921-ci ildə “Девочка с картинкой” adlı ilk şeiri ilə ədəbiyyata gəlmiş, 1940-cı ildə artıq məşhurlaşmış və tanınmış uşaq şairinə çevrilmişdir. 1942-ci ildə “Союзмультфильм” studiyasında müəllifi olduğu “Лиса. Заяц и петух” adlı cizgi filmi çəkilir. 1946-cı ildə radioda uşaqlar üçün həm redaktoru, həm də aparıcısı olduğu veriliş hazırlayır. 1969-cu ildə “Колобок” jurnalında Y. Blaginanın öz səsi ilə şeirləri səsləndirilmiş, jurnal patefonla səslənən bir şəkildə çapa buraxılmışdı.

---

[41] az. strategiya.az

O, 1933-cü ildən müəllif adı ilə tanınmışdır. Bir neçə il uşaq jurnalları olan "Мурзилка" və "Затейник" də redaktor olmuşdu.

Y.P.Blaginanın əsərlərindən ibarət 40-dan çox kitabı çap olunmuşdur. Yazıçı Korney Çukovski onun şeirlərini "təmiz qızıl" ("Чистым золотом") poeziya nümunələri adlandırmışdır.

İ.P.Tokmakova (1929-2018) Rusiyanın Moskva şəhərində anadan olmuşdur. O, uşaq şairi, şeirlər tərcüməçisi, bir neçə məşhur povestlərin də müəllifidir. MDU-nin filologiya fakültəsini 1953-cü ildə bitirmiş, aspiranturadan sonra linqvistika ilə məşğul olmuşdu. Uşaqlara münasibəti tərcümələri ilə başlamışdı və bununlada məşhurlaşmışdı. Onun ilk tərcümə kitabı şved xalq mahnıları olmuşdu, ingilis, ispan, italiya, holland və digər yazarların əsərləri ilə uşaqları tanış etmişdi. O, uşaq ədəbiyyatına zəngin bir xəzinə hədiyyə etmişdi. İ.P.Tokmakovanın 312 ədəd kitabı çap olmuşdu.

Tokmakovanın əməyi yüksək qiymətləndirilmiş, müxtəlif mükafatlar və təltiflərə layiq görülmüşdü. 2002-ci ildə Aleksandr Qrin adına Rusiya ədəbiyyatı mükafatı, 2003-cü il 5 iyunda Rusiya dövlət mükafatı, 2008-ci ildə "Təhsil sahəsində xidmətə görə" mükafatını almışdır.

IV fəsil **"60-80-ci illərdə Azərbaycan və rus uşaq nəsri",** bu fəslin birinci yarımfəsli isə **"4.1. Azərbaycanda milli uşaq nəsrinin yaranması"** adlanır.

Azərbaycan nəsri nə qədər öyrədici olsa da, uşaq ədəbiyyatının özünəməxsus spesifikası, mövzu dairəsi, ifadə tərzi, ideya və mətləbləri vardır. Milli uşaq nəsrimiz əlvan və zəngindir.

Türkmənçay müqaviləsinə (1828) əsasən, Rusiyanın müstəmləkəsinə çevrildik. Əsarət altına alınsaq da, mütərəqqi ziyalilarımzın fəaliyyəti nəticəsində xalq, ədəbi-mədəni və pedaqoji mühitdən kənarda qalmadı.

Azərbaycan uşaq ədəbiyyatı XIX əsrin 70-80-ci illərində yeni inkişaf yoluna qədəm qoydu. Bu illərdə çap olunmuş dərsliklər və toplular daha qənaətbəxş hesab olunurdu.

1829-cu il avqustun 2-də Zaqafqaziya məktəblərinin ilk nizamnaməsi təsdiq edildi. Azərbaycanda Avropa tipində məktəblər açmağın rəsmi tarixi başlandı. 1875-ci ildə Qazax qəzasının Salahlı kəndində "rus-müsəlman" məktəbi fəaliyyətə başladı.

S.Ə.Şirvaninin Şamaxıda, Səfərəli bəy Vəlibəyovun, M.Nəvvabın Şuşada, M.T.Sidqinin Ordubadda ("Əxtər"), Naxçıvanda, Məşədi Molla İsmayıl Kazımovun İrəvanda açdıqları ana dilli məktəblər çox əhəmiyyət kəsb edirdi və böyük nailiyyət idi.

Ana dilində yaradılacaq dərsliklər də tez və asan başa gəlmirdi. S.Ə.Şirvaninin 1878-ci ildə hazırladığı, lakin çap etdirə bilmədiyi "Rəbiül-ətfal" kitabına qədər Dementyevin "Əlifba", "İlk oxu üçün təmsillər və povestlər" və M.Ş.Vazeh və İ.Qriqoryevin 1850-ci ildə tərtib etdikləri "Kitabi – türki" dərsliyi var idi.

Y.Brandis dünya ədəbiyyatında uşaq ədəbiyyatının təşəkkül tarixini birbaşa Ezopun təmsillərindən başladığını göstərirdi.

Uşaq nəsri, Azərbaycan uşaq ədəbiyyatının mükəmməl sahələrindəndir. Nəsr uşaq ədəbiyyatımızın nisbətən cavan janrıdır.

Dərin idraki əhəmiyyətə və estetik gözəlliyə malik olması tələbi ilə uşaq yazarları, böyüməkdə olan gənc nəslin hər cür fəaliyyət və davranış normalarını nizamlı, gözəl, ahəngdar görmək istəyirdilər[42].

Mütərəqqi rus yazıçılarının əsərləri Azərbaycan dilinə tərcümə olunub, dərsliklərə daxil edildi. Krılovun təmsilləri, A.S.Puşkinin nağılları, Lev Tolstoyun hekayələri, yalnız uşaq ədəbiyyatını deyil, həm də yeni mündəricəli Azərbaycan ədəbiyyatını zənginləşdirmişdi.

1882-ci ildə A.Çernyayevski Qori semnariyasında azərbaycanlı tələbələrin köməyi ilə "Vətən dili"ni nəşr etdirdi. R. Əfəndiyevin tərcüməsində, İ.A.Krılovun "Tülkü və üzüm" əsəri də verilmişdi.

1918-1920- ci illərdə Şərqdə ilk Demokratik dövlət yarandı. Azərbaycan xalqının tarıxındə bu dövlət dərin izlər buraxdı.

Bu illərdə uşaq nəsri, Y.V.Çəmənzəminlinin, S.Hüseynin, T.Şahbazinin, A.Şaiqin, S.S.Axundovun, Ə.Haqverdiyevin, C.Məmmədquluzadənin, M.C.Paşayevin və d. yaradıcılığında inkişaf edirdi.

1931-ci il 17 yanvarda I uşaq ədəbiyyatı konfransında hazırkı vəziyyət və inkişafı məsələləri müzakirə olunmuşdu.

---

42 Məmmədov, M. Babayev, Y. Cavadov, T. Pedaqoji mühit və uşaq ədəbiyyatı – Bakı: Maarif, – 1992. – 288 s.

60-80-ci illər Azərbaycan uşaq nəsrinin tale yolu, fərqli və yüksək inkişaf dövrü kimi yaddaşlara həkk olundu. Uşaq nəsrinin təşəkkülü, üç nəslin fəal iştirakı ilə inkişaf edirdi.

Anarın yaradıcılığında realist mövqedə duran qəhrəmanlar, Elçinin, M.İbrahimbəyovun, H.Abbaszadənin əsərlərində humanist fikirlər, uşaq dünyasının qeyri - adiliyi açılmışdır.

60-80-ci illərdə Azərbaycan uşaq nəsri, donmuş yox, daim hərəkətdə, mövzu fərqliliyi ilə dəyişir, çünki böyüyən uşaqların təfəkkür üfüqlərinin böyüməsi, yeni obrazların doğulmasina səbəbdir. 20 Yanvar faciəsi, Qarabağ savaşı mənəvi dünyamızı parçaladi, həyat işığımızı söndürdü, amma məhv edə bilmədi. Əksinə, mübarizlik, döyüşgənlik hissi yaratdı, yeni səpgili əsərlər meydana gətirdi.

Xilaskar-kapitan milli lider Heydər Əliyev, qara buludları ölkəmizin üzərindən qovdu. Xalq sabaha böyük ümidlə baxmağa başladı. Müstəqilliyimiz möhkəmləndikcə, uşaq ədəbiyyatı sahəsində qosaman, orta, gənc nəsillə bərabər yeni nəsil meydana gəldi.

IV fəslin ikinci yarımfəsli **"XX əsrin 60-80-ci illərində Azərbaycan uşaq nəsri: Ə.Babayeva, Ə.Əhmədovanın uşaq nəsri sahəsində fəaliyyəti"** adlanır.

Azərbaycan uşaq ədəbiyyatının mühüm mərhələsi kimi maraqlı, geniş, ədəbi nümunələri ilə tanınan, iz qoyan nasirlərimiz, ədəbi və mənəvi mühit yarada bildiklərinə görə, ədəbi tənqiddə də yeni nəsil yaradıcılıqları "yeni nəsr" adlanır.

Bu gün qələbə əzmi, böyük şövq və ruh yüksəkliyi ilə başa vurduğumuz 44 günlük müharibənin sevinci ilə bərabər ağrısı, nisgili, şəhidlərimizin, qazilərimizin rəşadəti, qorxmazlığı hələ çox əsərlərin mövzusu, ana xətti olacaqdır.

Azərbaycan uşaq nəsrinin inkişafında rolu olan, gözəl hekayə ustası, nasir, yazıçı, tərcüməçi Ələviyyə Babayeva, (1921- 2014) həkim olmaq istəyi ilə Tibb İnstitutuna daxil olsa da, həyatının ədəbiyyatla bağlı olduğunu anlamış, bu səbəbdən də ADU-nun filologiya fakültəsinə daxil olmuşdu.

Ədəbi fəaliyyətə 1936-cı ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş "İki həyat" adlı hekayəsi ilə başlamış, 1950-ci ildə hekayələri əsasında "Mənim müəlliməm" adlı ilk kitabi nəşr olunmuşdu. 1951-

ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, ömrünün 77 ilini yazıb – yaratmağa, bədii tərcüməyə həsr etmişdi. Onun 63 kitabı, 9 romanı işıq üzü görmüşdü . Ələviyyə xanım, əsərləri dünya dillərinə ən çox tərcümə edilən azərbaycanlı qadın nasirdir.

60-80-ci illər də Azərbaycan uşaq nəsrinin yaradıcılarından olan Ə. Babayeva, insanlarda görmək istədiyi müsbət keyfiyyətləri və problemləri əsərlərində, Müşkünaz(“Rəngbərəng adamlar”), Bəbir (“Son döngə”), Bulut (“Bəlkə sabah olmadı”), Şirin (“Əlvida”), Elxan Biləndərli (“Hardasan dost, harda”) və s. bu kimi mənəvi paklıqlarını qoruyub saxlamış obrazların simasında görmək istədiyi nurlu, müsbət qayəni düzgün ümumiləşdirmişdir.

1979-cu ildə Azərbaycan SSR Əməkdar Mədəniyyət İşçisi fəxri adına layiq görülmüşdür. Həyatda çox acılar yaşadı, amma sınmadı. Yıxdilar, qalxdı. O, çox məğrur qadın idi. Qalib, zəfər çalmış Azərbaycanı arzuladı, təəssüf görə bilmədi.

Azərbaycan uşaq ədəbiyyatının inkişafı 60-80-ci illərdə də bir çox yazıçılarımızın əməyi sayəsində genişlənmiş, tərbiyəvi və əxlaqi cəhətdən təsirini gücləndirmiş, inkişaf xəttini davam etdirmişdi.

Belə sənətkarlardan biri də uşaq ədəbiyyatının görkəmli nümayəndəsi olan Əzizə Yəhya qızı Əhmədova (1932-2003) orta məktəbi bitirdikdən sonra Pedaqoji Texnikumu və Bakı Dövlət Universitetinin Jurnalistika fakultəsini bitirmişdir. Gənc jurnalist, “Uşaq və gənclər” nəşriyyatında əmək fəaliyyətinə başlamışdır. “Qorxmazın səhvi” adlanan ilk hekayəsi 1957- ci ildə “Pioner” jurnalında, ilk kitabı “Xınalı qayalar” 1967-ci ildə çap olunmuşdur. Onun yaradıcılığının ən məhsuldar dövrü 60-80- ci illərə təsadüf edir. Bu illərdə “Yaz qarı”, “Onu çiçəklər sevdi”, “Bu ellərə vurulmuşam”, “Bir ürək sındırmışam”, “O günlərə baxıram”, “Mavi gözlərin işığı”, “Damda yaşayan Karlsonla, bacada yaşayan Damdabacanın macəraları”, “Çiçəklərim”, “Bir məhəbbət burulğanı” adlı kitabları çapdan çıxmışdı. Kitablarına toplanmış hekayələr, bütün gücü ilə dostluğu, yoldaşlığı, sədaqəti, düzlüyü, ehtiramı anlatmışdır. Uşaqlığı müharibənin acı günlərinə təsadüf etmiş Əzizə xanımın o illərə həsr olunmuş “İtirilmiş uşaqlıq”, “Onda qar soyuq idi”, “Nənəm və mən”, “O günlərə baxıram” və s. əsərlər bu qəbildəndir.

Ə.Əhmədovanın əsərləri 60-80-ci illər uşaq nəsrinin qızıl səhifələridir. Onun yaradıcılığında S.S.Axundovun, A.Şaiqin, Ə.Vəliyevin, S.Rəhimovun təsirini, Mir Cəlal Paşayevin üslubunu müşahidə edirik.

IV fəslin üçüncü yarımfəsli **"Zoya İvanovna Voskresenskaya və Lyubov Fyodrovna Voronkovanın 1960-80-ci illərdə rus uşaq nəsrində yeri."** adlanır. Uşaq ədəbiyyatının inkişafı bütün dövrlərdə rus cəmiyyətində gündəmdə olmuşdur. Hələ 1986-cı ildə KPSS MK-nin məruzəçiləri uşaq ədəbiyyatının inkişafı haqqında: *"Uşaq ədəbiyyatının rolu, cəmiyyətimizin indiki inkişaf mərhələsində yazıçıdan bədii kəşflər, hər zaman əsl sənətin mahiyyəti olan həyat həqiqətini gözlədiyi zaman ölçüyə gəlməz dərəcədə artır"*[43]– demişlər.

1959-cu ildə yazıçıların III qurultayında A.Surikov məruzəsində, S.Mixalkov "Sovet uşaq ədəbiyyatının Yüksək məqsədi haqqında" 1967-ci ildə Sovet Yazıçılarının IV Ümumittifaq Konqresində çıxışında sovetlərin çox millətli olduğunu vurğulamış, bu 50 ildə qazanılan nailiyyətlərin hamıya aid olduğunu söyləmişlər.

1981-ci ildə SSRİ Yazıçılarının VII Qurultayında və 1986-cı ildə Yazıçıların VIII Qurultayında vurğulandı ki, ölkədə baş verən yeniləşmə, miqyasına uyğun olaraq inkişafetmə, həm uşaq ədəbiyyatına, həm də bütün ədəbiyyata aiddir. S.Mixalkov çıxışında: *"Gedin uşaq və gənclərin həyatı ilə yaxından tanış olun, onların döyüşkən, vətənpərvər, beynəlmiləlçi olmalarına zəmanət verən əsərlər yazın"*[44] – deyirdi.

Uşaq ədəbiyyatının inkişafında böyük rolu olan Z.İ.Voskresenskaya (1907-1992) Tula vilayətində Uzlova qəsəbəsində anadan olmuşdur. Qəsəbədə ibtidai təhsil almışdı. 14 yaşı olanda 42-ci Smolenski hərbi batalyonunda kitabxanaçı, 1923-cü ildə yeniyetmə dustaqların kalonunda təbliğatçı, 1928-ci ildə Smolenski şəhər Zadneprovski raykomunda şöbədə işləmişdir. 1929-cu ilin avqustunda Moskvada Xarici işlər şöbəsində kiçik kəşfiyyatçı ilk səfəri Xarbin olmuşdu. 1929-cu ildə onu VKP(b)-nin üzvülüyünə

[43] Sovet İttifaqı Kommunist Partiyasının XXVII qurultayının materialları / – Moskva: Vısşaya şkola, – 1986. – s.90.

[44] SSRİ yazıçılarının VII qurultayının məruzələrindən / – Moskva: Xudojestvennaya literatura, – 1981. – 160 s.

qəbul etmişdilər. 1932-ci ildə Leninqrad şəhərində Xarici işlər şöbəsində həmişəlik işə qəbul olunmuşdur. 1935-1939-cu illər arasında Finlandiyada NKVD kəşfiyyatçısı kimi fəaliiyət göstərsədə, vəzifəsi isə "İnturist" VAO-nun Helsinski şöbəsində sədr idi.

1956-cı ildə polkovnik rütbəsində pensiyaçı kimi anasının məsləhəti ilə yaradıcılıqla 30 il məşğul olmuş, 1962-1980-cı illərdə 21 milyon 642 min tirajla əsərləri çap olunmuşdu. Hər fəslin başlığında hadisələr zamanın axarına qoşulur.Zamana uyğun adlar məzmun uyğunluğu mükəmməlliyi qorunu; «Управлени» («İdarə»), «Началник района» ("Rayon rəisi"), «В суде» («Məhkəmədə»), « В школе» («Məktəbdə»), «Не виноват» ("Haqlı"), «Набать» ("Habat"), «Начало путешествия» ("Səyahətin əvvəli"), «Dедушка Надин» ("Nadinin babası"), «Ренсия» ("Penisiya"), «Удивительные люди» ("Heyrətləndirici insanlar"), «Губернатор» ("Qubernator"), «Понционат» ("Pansionat") və s.

Lyubov Fyodrovna Voronkova (1906-1976) Stroqonskidə peşə məktəbində təhsil almış, jurnalist kimi fəaliyyət göstərmişdi və ən çox kənd həyatından yazmışdı. Onun "Комсомолской правды» ("Komsomolskaya Pravda") qəzetində ilk şeiri, 1940-cı ildə ilk kitabı "Şurka" çap olunmuşdu.

Ümumiyyətlə, L.F. Voronkovanın yaradıcılığı çoxşaxəlidir. O, müxtəlif yaşda olan uşaqların xarakterizə olunan xüsusiyyətlərini ifadə edən silsilə hekayələrinin vasitəsilə rus uşaq ədəbiyyatını zənginləşdirmişdi. Həyatın mürəkkəb həqiqətlərinin yazıçı üslubunda ifadə olunması, yalnız Voronkova kimi istedadlı nasirlərin qələminə xas ola bilərdi. Öz arzularına doğru göylərə üz tutmuş, "Шурка" ("Şurka"), «Гуси-утки» ("Qazlar-ördəklər"), «Городской девушка» ("Şəhərli qız"), «Солнечный день» ("Günəşli gün"), «Федя и Данилка» ("Fedya və Danilka"), «Волшебное побережье» ("Sehirli sahil") kimi əsərlərinin qəhrəmanları olan Valentina, Tanya, Şurka, Fedya, Danil, Alyonka kimilərinin dilindən çatdırmış, uşaqlara təbii aləmi sevməyi, faydalanmağı, bəhrələndiyi torpağı qorumağı, inkişafına kömək etməyi tövsiyə etmişdir.

İstedadlı yazıçı 30-cu illərdən qələminin gücü ilə ədəbiyyat dünyasına qədəm qoyan, hər zaman uşaqların maraqlı, işıqlı dünyasını qələmə alan Voronkovanı, həm də 80-ci illərə aid edirlər.

Çünki bu illərdə də əsərləri müasirdir, oxucuları yetərlidir, atdığı sehrli lələkləri uşaqlar tutur və uçmağa çalışırlar.

Nəhayət, dissertasiyanın **V fəsli "Azərbaycan və rus uşaq folkloru"** adlanır.

Ədəbi nümunələrin ilham pərisi folklorun qanadlarında ucalır. Yüksək mədəni səviyyə, elmlik, xalq dühasına bağlılıq xalqımızın gələcəyinə parlaq bir yolçuluğun pozulmayan xəritəsidir. Bu xəritə dünya türk xalqlarının birləşmə nöqtəsidir.

Floklor öz xüsusi yolu ilə hər zaman tarixə yoldaşlıq edir.

*«Folklorşünaslığın tədqiqində etnoqrafiyanın da böyük əhəmiyyəti vardır. Çünki xalq yaradıcılığında xalqın həyatı, məişəti, adət və ənənələri, mərasim və bayramları öz bədii əksini tapır. Bu səbəbdən xalq əsərlərini yaxşı öyrənmək və doğru araşdırmaq üçün o xalqın etnoqrafiyasını, əsil-nəsilliyini yaxşı bilmək lazımdır..... Deməli, xalq yaradıcılığının elmi tədqiqində xalqın tarixini, qövmü xüsusiyyətlərini (etnoqrafiya), dilini və dil tarixini və ləhcələrini və musiqisini də göz önündə tutmağınız lazımdır»*[45]

M.Qorki xalq yaradıcılığı sahəsində də xeyli araşdırmalar aparmışdı. M.Qorki belə izah edirdi ki, bu sahəni öyrənmədən zəhmətkeş xalqın tarixini bilmək mümkün deyil. O, yazıçıları, sənətkarları xalq ədəbiyyatından istifadəyə səsləyirdi: *«Bütün ölkələrin böyük şairlərinin yaxşı əsərləri lap qədimdən bəri bütün poetik ümumiləşdirmələrlə şöhrətlənmiş, surət və tiplər verilmiş olduğu xalqın kollektiv yaradıcılığı xəzinəsindən götürülmüşdür»*[46].

Floklor – xalq biliyi, xalq yaradıcılığı, xalq hikməti olaraq bədii söz sənətinin bir sahəsidir. Bu ümmanın inciləri yeni yaranacaq hər növ ədəbiyyata öz təsir gücünü göstərir. İnsan bir duyumla bir nəğmə və ya bir şeir parçası ilə ifadə edə bildiyi layladır, oxşamadır, nağıldır, holavardır, dastandır.

Fərdi yaradıcılıq qabiliyyətinin məhsulu olan bu incilər, layla, bayatı, oxşama, atalar sözü, tapmaca, məsəl və lətifələr, nağıl və dastanlar insan ovqatının bədii təsviridir. Bu zəngin xəzinə şifahi

---

[45] Heyət, C. Azərbaycan şifahi xalq ədəbiyyatı / C.Heyət. – Bakı: Azərnəşr, – 1990. – 165 s.

[46] Горький, М. О детской литературе / М.Горький. – Москва: Детская литература, – 1968. – 432 с.

xalq ədəbiyyatı olaraq yazılı ədəbiyyatında yaranma mənbəyi olmuş, güclü sənətkarların, dərin mənalı, dünyəvi əsərlərin yaranmasına rəvac vermişdir.

«Folklor» ingilis sözüdür. Xalq biliyi və xalq hikməti mənasını ifadə edir. Bu termini ilk dəfə 1846-cı ildə Vilyams Toms işlətmişdi.

Deməli, xalq yaradıcılığının elmi tədqiqində xalqın tarixini, etnoqrafiya xüsusiyyətlərini, dilini və dil tarixini, ləhcələrini, musiqisini də göz önündə tutmaq lazımdır

M.Qorki xalq yaradıcılığı sahəsində xeyli araşdırmalar aparmışdı. M.Qorki izah edirdi ki, bu sahəni öyrənmədən zəhmətkeş xalqın tarixini bilmək mümkün deyil. O, yazıçıları, sənətkarları xalq ədəbiyyatından istifadəyə səsləyirdi.

XIX əsrdə folklorun bütün növlərinə aid nümunələr toplanmış rus mətbuatında çap olunmuşdur. 1825-ci ildə ilk dəfə Azərbaycan nağılı rus dilində çap edilmişdir. 1890-cı ildə A.D.Yeritsov 114 Molla Nəsrəddin lətifəsini çap etdirmişdi.

Azərbaycan ziyalılarından S.Ə.Nəbati, Q.Zakir, A.Bakıxanov, N.Vəzirov, S.Ə.Şirvani, H.Zərdabi, M.F.Axundov, H.M.Qayıbov və digərləri folklor nümunələrini toplamış, amma çap etdirə bilməmişlər.

H.Zərdabi ömrüboyu şifahi xalq ədəbiyyatı nümunələrindən olan mahnılar toplamış, 1901, 1903, 1909-cu illərdə çap etdirmişdi. Orada «Hər kəsi çağırıram gəlmir, deyirəm eşitmir, göstərirəm görmür» fikrini qeyd etmişdi. Zərdabiyə görə mahnılar insanları daha çox düşündürər, müştərək amal uğrunda birləşdirər. Onun çağırışına S.Ə.Şirvani, A.Səhhət, M.Ə.Sabir də qoşulmuşdur.

Bu illərdə R.Əfəndiyevin, F.Köçərlinin, A.Şaiqin, A.Səhhətin, M.Mahmudbəyovun tərtib etdikləri dərs vəsaitlərinə folklor nümunələri də salınmışdır. 1898-ci ildə S.Əbdürrəhmanbəyovun topladığı nağıllar «Tatar uşaq nağılları» adı ilə çap olunmuşdu.

F.Köçərli, folklorun təlim-tərbiyə üçün əhəmiyyətini qiymətləndirirdi: *"O millət ki, öz tarixini, dolanacağını, vətənini və dilini sevir, bu qisim əsərləri kəmali-şövq və diqqətlə cəm edib,*

*ziqiymət sərmayə kimi saxlayır və balalarının ilk təlim-tərbiyəsinə onları oxumaqla başlayır"*[47].

Bundan başqa onun əhəmiyyətli əməyi «Balalara hədiyyə» adlı kitabı idi. 1912-ci ildə hazırlanan bu kitab böyük bir hadisə kimi qarşılandı. S.Hüseyn kitabı Qafqazda birinci kitab adlandırmışdı: "Bizi kəndimizə tanıtdırır və keçmişimizə qarşı bizdə milli bir duyğu oyadır"[48].

F.Köçərli kimi Y.V.Çəmənzəminli, R.Əfəndiyev və A.Səhhətin bu sahədə müəyyən əməyi var. H.Zeynallı folklorun müxtəlif növlərini toplamış, 1926-cı ildə «Azərbaycan atalar sözləri - məsəlləri», 1927-ci ildə «Azərbaycan tapmacaları» kitablarını çap etdirmişdi. Salman Mümtaz da ömrüboyu folklor nümunələr toplamış, redaktə etmiş və çap etdirmişdi.

Azərbaycanın tarixini yaşadan, xalqın dünyagörüşünü, bədii təfəkkürünü öyrənməkdə qiymətli mənbədə və zəngin ədəbi xəzinəsində dastanların genişliyi, atalar sözü və məsəllərin mülrikliyi, lətifələrin oynaqlığı, şuxluğu, qoşmaların əlvanlığı, tapmacaların, yanıltmacların sadəliyi, dərinliyi, laylaların zərifliyi, atmacaların kəskinliyi və s. mənəvi dəyərlərin ali xüsusiyyətləri hər zaman özünü göstərir.

Azərbaycan xalqı dünyanın ən zəngin folklor sərvətinə sahibdir. Azərbaycan folklorunun müəyyən uşaqlar üçün nəzərdə tutulmuş mənəvi zövqlərinin, duyğularının ən çox təsir gücü hiss olunan qolu uşaq folklorudur. Uşaq folkloru inkişafetmə baxımından iki istiqamətdə yaranır, zənginləşir:

1. Böyüklərin hesabına yaranan əsərlər;
2. Uşaqların öz yaradıcılıqları hesabına;

A.Nəbiyev bu bölgünü belə vermişdir:

a) böyüklərin uşaqlar üçün yaratdığı nümunələr;

b) böyüklər tərəfindən yaranıb zaman keçdikcə uşaq folkloruna çevrilmiş nümunələr;

c) uşaqların özləri tərəfindən yaradılmış nümunələr

---

[47] Köçərli, F. Seçilmiş əsərləri: [2 cilddə] / F.Köçərli. – Bakı: Elm, – c.2. – 1981. – 460 s.

[48] Kazımoğlu, M., Hüseyn, S. // Balalara hədiyyə və ya Qafqazda birinci kitab. İqbal qəzeti, – 23 may, – 1913. – s.2.

Hər zaman birinci yaş dövründə böyüklərin yaradıcılığından mənəvi baxımdan qidalanırlar, öyrənirlər, qaytarmağa çalışırlar.

İkinci yaş dövründə nitqi inkişaf etmiş, gördüklərini, eşitdiklərini sərbəst ifadə edən və qaytara bilən, öyrəndiklərini "özününkü" etməyə çalışan, uşaqlara yetişir.

Uşaqların yaradıcılığı tükənməzdir, özünəməxsusdur, yaranan kiçik, lirik, epik janrda olan nümunələrin kim tərəfindən, necə yaranması elə də önəmli deyil.

Uşaq folklorunun üç növü vardır:

1. Kiçik növ
2. Lirik növ.
3. Epik növ.

Kiçik uşaq folkloru yanıltmaclar, atalar sözü və məsəllər, tapmacalar, çağırışlar, müraciətlər uşaq dünyasının bütün cəhətlərini əks etdirmişdir.

Lirik növdə olan laylalar, oxşamalar, dilaçmalar, öyrətmələr, sanamalar, düzgülər, uşaq oyun və tamaşaları, uşaq nəğmələri həm uşaqlarin, həm də böyüklərin gücü ilə yaranan janrlarlardır.

Uşaq folklorunun janrlarından biri də epik növdür: lətifələr, əfsanə və rəvayətlər, nağıllar və dastanlar.

Ədəbiyyat və incəsənət, xüsusilə şifahi xalq yaradıcılığı milyonlarla insan üçün sevinc və ilham mənbəyi olmaqla, övladlarımızın həyat yolunu nurlandıran, onların iradəsini, duyğu və düşüncələrini, hiss və həyəcanlarını, arzu və istəklərini ifadə edən, ideyaca zənginləşdirən, əxlaqi cəhətdən tərbiyələndirib mənəvi saflığa doğru aparan bir vasitədir.

Tədqiqatçı alimlər bu sahədən bəhrələnməyi hər zaman tövsiyə etmişlər. Rus ədəbiyyatının böyük sənətkarlarından biri K. Çukovski qeyd edirdi ki, bütün yazıçılar üçün yeganə kompos xalq poeziyasıdır. Azərbaycan uşaq ədəbiyyatında da bu sahədən faydalanma çoxtərəfli və ardıcıl olmuşdu. Dağıstan xalq şairi Rəsul Həmzətov yazır: *"Ana mahnısı bütün insan nəğmələrinin əvvəli, bütün insan mahnılarının başlanğıcıdır. Ana laylaları olmasaydı,*

*dünyada ayrı nəğmələr də yaranmazdı. Ana mahnıları poeziyanın ilk mənbəyi, qəlbimizə səpilmiş ilk poeziya toxumudur"*[49].

Azərbaycan uşaq poeziyasında layla üslubunda yazılmış şerlər bir silsilə təşkil edir. R.Əfəndiyev, A.Şaiq, A.Səhhət, M.Seyidzadə, S.Rüstəm, Z.Cabbarzadə, R.Rza, M.Dilbazi, Ə.Cəmil, T.Elçin, Ə.Kərim, M.Gülgün və başqa şairlərimizin layla üslubunda yazdıqları şeir nümunələrindəndir. Uşaq əsərlərində xalq poeziyasından istifadə mənasında K.Talıbzadə A.Səhhətin fəaliyyətini xüsusi qeyd edir. Teymur Elçinin uşaqların nitqini rəvanlaşdırmaq məqsədinə nail olduğu "Keçilər", "Cücülər", "Yemişlər", "Ağacdələn", "Alabaş", "Qaz və qız", "Tülkünün kürkü", "Kosa" və s. əsərləri var. R. Əfəndiyevin "Fəsillər haqqında", A.Şaiqin "Tapmaca mahnısı", M. Dilbazinin "Tapın görüm hansı quşam", T.Elçinin "Bap-balaca fabrik", "Fildən böyük", "Üzər suda, batar suda", X. Əlibəylinin "Tap görüm nədir?", M.Gülgünün "Tapmacalar" və s. tapmaca şeirləridir.

R.Əfəndiyevin "Yaz olanda", "Gül", "Durna", "Yağış", "Fəsillər haqqında", "Bənövşə", S.Əzimin "Padşah və bağban", "Loğmanın satılması", "Axır qəbiristana gələcək", "Xeyirsöyləməz", "Həmədan hakimi", "Qarı və oğlu", "Xəlifə və Bəhlul" və s.öyüd, təmsillərdən, atalar sözlərindən, xalq rəvayətlərindən bəhrələnərək yazılmış şeirlərdir.M.Ə.Sabirin "Qoca bağban", "Molla Nəsrəddinin yorğanı", "Qarınca", "Uşaq və buz", "Uşaq və pul", "Yalançı çoban", "Camış və sel", "Təbib və xəstə" və s. A.Səhhətin "İki uşaq", "İki dana", "Oğru və anası", "Aşbaz və pişik" və s. M.Seyidzadənin "Keçəl Səməd", "Nərgiz", "Qartal", "Üç alma", "Cik-cik sərçəcik", "Sehrli nar", "Səbayel gözəli", "Günəş baba", "Gözəllik bulağı", M.Müşviq "Şəngül, Şüngül, Məngül", M.Dilbazinin "Odunçu", N.Rəfıbəylinin "Kəndli və qurd nağılı", M.Gülgünün "Sən nə güclüsən?", X.Əlibəylinin "Qurd nağılı", B.Azəroğlunun "Qurd və quzu", "Xoruz nağılı", Ə.Başlıbellinin "Səfər və ilan" və s. folklordan alınmış əsərləridir.

Nəbi Xəzri qələminin sınağından çıxmış "At, övlad və torpaq" adlı bədii naxış və çalarlığı ilə müdrik bir məsələyə həsr olunmuş

---

[49] Həmzətov, R.H. Rusiya yazıçıları / R.H.Həmzətov. – Mockva: Prosveşeniye, – 1962. – s.213-216.

rəvayəti, "Burla xatun" və "Torpağa sancılan qılınc" poeması xalq bədii təfəkkürünün məhsuludur.

Folklorun imkanlarından Azərbaycan yazıçıları həmişə məharətlə istifadə etmiş, yüksək və nəcib insani hisslər tərbiyə etmişlər.

Mikayıl Rzaquluzadə "Elgücü", "Ana ürəyi dağ çiçəyi", "Dəli Ozan", Mehdi Hüseyn "Odlu qılınc", İlyas Əfəndiyev "Qarı dağı", S. Axundovun 1923-cü ildə qələmə aldığı "Qan bulağı", Ə.Vəliyevin "Madarın dastanı" kimi əsərlər xalq nağılları əsasında yazılmışdır.

Azərbaycan uşaq ədəbiyyatı yaradıcılıq vəzifələrini yerinə yetirmək yolunda qabaqcıl ənənələrdən faydalanmışdır. Uşaq ədəbiyyatının ənənələrindən danışarkən ilk növbədə folklorun, xalqın şifahi ədəbiyyatının ənənələrini nəzərdə tutmalıyıq. Xalqın bədii sərvəti əsl yaradıcılıq məktəbidir. Bu məktəbdən dərs alan istedadlı şairlər, bəstəkarlar öz yaradıcılıqlarında o vaxt dahi olurlar ki, onlar xalq yaradıcılığı ilə ünsiyyət bağlamış, onun xəzinəsinə müraciət etmişdir. Folklor yazılı ədəbiyyat üçün tükənməz mövzu və ilham mənbəyidir. Xalqın bədii təfəkkürünün məhsulu olan nağıllarda və əfsanələrdə, hər şeydən əvvəl xalqın mübarizə tarixi, mənəvi aləmi və fəlsəfəsi, əxlaqı, adət-ənənələri və gözəl həyat barədə ümidləri əks olunmuşdur.

**V fəslin ikinci yarımfəsli "Rus uşaq ədəbi nümunələrində folklorun izi"** adlanır.

Folklor hər bir xalqın adət-ənənəsinə, tarixi köklərinə, yaşam tərziinə məxsus olub, kollektiv yaradıcılıq mahiyyəti daşıyır. Xalq şeiri ən böyük sərvətdir. O, həm millətin milli mədəniyyəti, maariflənmə sahəsinin inkişafedici qüvvəsi, həm də yüksək əxlaqi dəyərlərin formalaşması yolunda tükənməz xəzinədir.

1934-cü ildə M.Qorki I Ümumittifaq Konqresdə çıxışında folklorun xalq arasındakı nüfuzunu geniş şəkildə dəyərləndirmişdi.

Folklor, insanlar arasında yaranan, yüksək tərbiyəvi əhəmiyyət daşıyan bir əxlaq kitabıdır, konstitusiyasıdır.

«Uşaq folkloru» ifadəsi rus folklorşünaslığında ilk dəfə 1926-cı ildə İrkutsk universitetinin professoru Q.S.Vinoqradov (1928), sonra görkəmli pedaqoq O.İ.Kapitsa tərəfindən işlədilmişdi.

Şifahi xalq yaradıcılığı, xalqın qeyri-peşəkarlıqla yaradılmış, mövcud olan hər növü və janrıdır. "Folklor" sözünün hərfi mənası xalq müdrikliyi, xalq biliyi deməkdir.

Rus xalqının ən kiçik folklor növü ninnilər və ya beşik nəğmələridir. Bu sözün qədim mənası pıçıldamaq deməkdir. Bu uşaqlara ninni, beşik başında söylənilən mahnılardır. Bunun köməyi ilə ana və ya dayə uşaqlara yuxu çağırırlar.

Zaman keçdikcə ninnilər ritual və yaşam xarakterini itirirdi. Uşaqlara pestuşeklər oxuyur, onları oxşayır, əzizləyirlər. Uşaq böyüdükcə sevələmələr, əzizləmələr – pestuşeklər, yerini poteşkilərə verdi. Arabanın təkərlərinin səsində zarafat ritmləri ilə yanaşı layla ritmi də yaranırdı:

*Трах, трах, тара-рак!*
*Едет баба на волках.*
*А, чу-чу, чу-чу, чу-чу!*
*Я горох молчу!*

Belə bir şeirin sözləri, musiqisi uşaqları xoşbəxt edirdi. Müəyyən tədbirlərin həyata keçirilməsində uşaqlar şən və hazırcavablıqlarını nümayiş etdirmək məqsədi ilə həyata gətirdikləri dolamalar, deyişmələr, öcəşmələr və sanamaların rolu mükəmməldir.

Məhlələr arasında, kəndin bir başı ilə o biri başı arasında münaqişələr, çəkişmələr baş verirdi. Adətləri lağa qoyar, danışıqlarına söz qoşardılar. Məsələn, novqorodluları «fisqıranlar», moskvalıları «muskovalı» çağırardılar. Bu oyunçuları məsxərəyə qoymağa çalışırdılar. «Архип – старый гриб», «Я беда – беда», «Борборушка – украл топорушка". Ən məşhur kolleksiyaçıların da topladığı şifahi nümunələr yazıçılar tərəfindən düzəldilmiş formada «Ладушки. Русские народные сказки, песенки, потешки» (Москва, 1966) adlı kitabda çap olunmuşdu. Bu uğurun birinci nəşri «Тридцать три пирог» adı ilə 1962-ci, ikinci 1968-ci, üçüncü 1973-cü ildə çap olunmuşdur.

Folklor nümunələrindən biri olan tapmacalar, uşaqlar üçün bir çətin gəliş olsa da, zehnin inkişafına güclü təsir göstərir. Tapmacalar məzmun və zehni vərdişlərin inkişaf etdirilməsində əhəmiyyətlidir.

Atalar sözləri məzmununa görə bu işi daha əhəmiyyətli yerinə yetirir. Rus dilində olan bir neçə yüz atalar sözünü uşaqlar böyüklərin nitqində eşidir.

Mahnılar xalq müdrikliyinin musiqili, bədii ifadəsidir, milli yaradıcılıq sahəsi kimi poetik duyğuları inkişaf etdirir.

Cəsarəti, qorxmazlığı, məğrurluğu da dastanlar öyrədir.

1949-cu ildə yazıçı, folklorşünas Karnauxovanın hazırladığı «Rus bahadırları. Dastanlar» adlı bir topluda rus xalq qəhrəmanları olan İlya Muramets, Dobrina Nikitiç, Alyoşa Popoviç haqqında maraqlı nağıllar, hekayələr verilmişdi.

Uşaqların həyatında müstəsna rolu olan nümunələrindən biri də nağıllardır. Rus xalq nağılı inanılmaz dərəcədə canlı, yaradıcı bir dünya üçün yaradılmışdır.

Mənəvi mədəniyyətin ayrilmaz hissəsi kimi söz sənətində şifahi xalq yaradıcılığına məxsus mənəvi dəyərləri özündə birləşdirən, həm pedaqogika elminin müəyyən müddəalarını şərh edən, həm də pedaqoji tələbləri üzvü surətdə özündə birləşdirən uşaq ədəbiyyatıdır.

Çoxəsrlik tarixə malik rus uşaq ədəbiyyatına aid ilk kitab 1491-ci ildə yazılmışdır. Sonra uşaqlar üçün müxtəlif adda kitab və jurnallar çap olunmuş, lakin cəmi 12 adda gəlib bizə çatmışdır.

1875-85-ci illərdə Tolstoyun, Uşinskinin yaradıcılığında, XX əsrin əvvəllərində A.Maykov, Y.Polonski, V.Dal, D.Qriqoreviç, K.Stanyukovski, D.Mamin-Sibiryak, A.Serafimoviç, A.Kuprin və s. sənətkarların yaradıcılığında folklorun izləri var.

A.S.Puşkinın folklor motivlərinin təsiri ilə yazılmış, gənclərə aid müdrik fikir və söhbətlərlə zəngin əsərləri var. Qoqol deyirdi: *"Onlar elə parlaqdırlar ki, hər kəs onları dərk etməyə qabildir. Onlar necə də anlaşıqlı olmasınlar! Onlar elə vüsətli, elə parlaq, elə atəşli, elə xoş və eyni zamanda uşaq kimi safdırlar"*[50].

XIX əsrin I yarısının tanınmış şairlərindən Vasili Andryeviç Jukovskidir.(1783-1852) Gənclər tərəfindən sevilən ilk kitabı 1815-ci ildə çap olunmuşdu. Çar onu 1817-ci ildə saraya çağırmış, uşaqlarına müəllim təyin etmişdi. V.A.Jukovskini uşaq ədəbiyyatı məsələləri ciddi düşündürürdü. Uşaq folklorunun təsiri ilə yazılmış 20 kitabı var.

Lermantovun Qafqazda 1837-ci ildə sürgündə olanda yazdığı və 1846-cı ildə çap olunan "Aşıq Qərib" və s. folklor motivləri ilə zəngin ədəbi nümunələri içərisində maraqlı əsərlərlə bərabər, uşaqlara ən gözəl töhfə "Əlifba" və "Yeni əlifba" adlı dərs kitablarıdır.

---

[50] Rus uşaq ədəbiyyatı / tərt.ed. və red. C.Nağıyev. – Bakı: Öndər, – I kitab. – 2005. – s.7.

Pyotr Pavloviç Yerşov (1815-1869) Tobolsk gimnaziyasını bitirmişdi. Sonra atası Peterburqa oxumağa göndərmişdi. Onu məşhurlaşdıran 19 yaşında folklor motivləri əsasında yazdığı "Qozbel at" əsəridir.

Uşaq ədəbiyyatı nümunələri işərisində folklorun köməyi ilə yaranmış minlərlə əsərlər var. Bütün bu əsərlər tərbiyə, təlim, əxlaqi dəyərlərə xidmət edir.

Dissertasiya işində Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü, inkişafı, qarşılıqlı əlaqələri və folklorunun müqayisəli analizi ilə bağlı aşağıdakı **nəticələr** əldə edilmişdir:

1. Dissertasiyanın Azərbaycan uşaq ədəbiyyatının təşəkkülü və inkişafını şərtləndirən amillərin öyrənilməsinə həsr olunmuş birinci fəslində uşaq ədəbiyyatının öyrənilməsinin tarixi ənənələrinin tədqiqi göstərmişdir ki, Azərbaycan təhsili tarixən milli-mənəvi zəmin üzərində qurulmuşdur və onun tarixi, keçmişi, inkişaf yolu Zərdüşt məktəbindən, qədim yazılarımızdan, tarixi abidələrimizdən, pedaqoji fikrimizin mühüm qaynağı sayılan "Qurani-Kərim"dən, Məhəmməd peyğəmbərin (s.) təlim-tərbiyə dolu hədislərindən, erkən orta əsrlərdə Azərbaycan, türk-islam mütəfəkkirlərinin, ensiklopedik alimlərinin təlim-tərbiyə, bədii-elmi, fəlsəfi-idraki fikirlərindən, pedaqoji istiqamətdə olan əsərlərindən keçərək günümüzə qədər gəlib çıxmışdır.

2. Birinci fəsildə Azərbaycan uşaq ədəbiyyatının inkişaf mərhələlərinin tədqiqi nəticəsində aydın olmuşdur ki, milli uşaq ədəbiyyatımızın tarixi tərbiyə dolu miflərdən başlanmaqla orta əsrlərdə N.Gəncəvi, Ə.Xaqani, Əhvədəddin Əhvədi, A.Ərdəbili, Ə.Təbrizi, Ş.İ.Xətai, M.Füzuli, Fədai, Məsihi, Saib Təbrizi və s. bu kimi klassiklərin, sonrakı əsrlərdə S.Ə.Şirvani, A.Bakıxanöv, F.Köçərli, A.Şaiq, S.M.Qənizadə, Q.Zakir kimi mütəfəkkirlərin və maarifçilərin yaradıcılığı əsasında zəngin inkişaf yolu keçmişdir.

3. Dissertasiyanın rus uşaq ədəbiyyatının inkişaf mərhələlərindən bəhs edən ikinci fəslindəki tədqiqatda göstərilmişdir ki, rus uşaq ədəbiyyatının tarixi elə 700 illik tarixi əhatə edən və XVIII əsrədək "qədim ədəbiyyat" adlanan rus ədəbiyyatı ilə həmyaşıddır. Yəni bu gün uşaqların səviyyəsinə uyğun olan qədim

rus uşaq ədəbiyyatı elə rus milli ədəbiyyatının əsas bazası əsasında təşkil olunmuşdur.

4. İkinci fəsildə rus uşaq ədəbiyyatının tarixi baxış məkanından və mərhələli öyrənilməsi yollarının tədqiqində göstərilmişdir ki, bu ədəbiyyat IX-XVII əsrləri əhatə edən qədim rus uşaq ədəbiyatı, XVIII əsr rus uşaq ədəbiyatı, XIX əsr rus uşaq ədəbiyatı, XIX əsrin sonu – XX əsrin əvvəli rus uşaq ədəbiyatı kimi əsas tarixi mərhələlərdən keçərək günümüzə qədər yol gəlmişdir. Bu mərhələlərin hər birinin öz bədii-estetik spesifikası olsa da, ümumiyyətlə, uşaq ədəbiyyatı rus ədəbiyyatının bütün tarixi boyunca fasiləsiz inkişaf dinamikasını nümayiş etdirmişdir.

5. Sözü gedən fəsildə Azərbaycan və rus yazıçılarının yaradıcılığında uşaq ədəbiyyatı ilə bağlı qarşılıqlı ədəbi əlaqələrin öyrənilməsi nəticəsində müəyyənləşdirilmişdir ki, XIX əsrin sonları – XX əsrin əvvəllərində ana dilinin tədrisi, milli dərsliklərin hazırlanması sahəsində çalışan maaifçi ziyalılar dünya uşaq ədəbiyyatının dəyərli örnəklərinə, xüsusilə də rus uşaq ədəbiyyatının forma və məzmun baxımından klassik nümunələrinə müraciət edərək, onların tərcüməsini həyata keçirmiş və tədris vəsaitlərinə daxil etmişlər. Bu cəhətdən, rus ədəbiyyatının S.A.Krılov, A.S.Puşkin, M.Y.Lermantov, L.N.Tolstoy kimi qüdrətli nümayəndələrinin uşaq mövzusu ilə bağlı əsərlərindən geniş istifadə olunmuşdur. Bu proses eyni zamanda Azərbaycan uşaq ədəbiyyatının Qərb və rus bədii tipologiyası əsasında inkişafına mühüm təkan vermişdir.

6. Dissertasiyanın Azərbaycan və rus uşaq nəzminin ədəbi poeziyada tədqiqinə həsr olunmuş üşüncü fəslində Azərbaycan uşaq poeziyasının yaranması, inkişafının tədqiqi nəticəsində aydın olmuşdur ki, Azərbaycan ədəbiyyatının tarixi ilə milli poeziyanın tarixi həmyaşıddır. Bu cəhətdən, "Azərbaycan poeziyasının tarixi uşaq poeziyası ilə başlanır" tezisi milli ədəbiyyatımızın tarixi inkişaf dinamikası ilə təsdiq olunur. 60-cı illəri ümumən Azərbaycan ədəbi-bədii fikrində xüsusi mərhələ olduğu kimi, uşaq ədəbiyyatının inkişafında da özünü xüsusi mərhələ olaraq göstərmişdir.

7.Sözü gedən fəsildə M.Dilbazinin, N.Rəfibəylinin və X.Əlibəylinin uşaq poeziyasının tədqiqi nəticəsində aydın olmuşdur ki, onlar uşaq şeirlərinə xüsusi əhəmiyyət vermiş, yazdığı şerlərlə

uşaqlara vətəni, təbiətini, tarixini, milli-mənəvi dəyərləri sevdirməyə çalışmışlar.

Uşaq şeir yaradıcılığının təhlilə cəlb olunması ilə müəyyən edilmişdir ki, ümumən, Azərbaycan uşaq ədəbiyyatının inkişafında görkəmli xidmətləri olan N.Dilbazi, N.Rəfibəyli və X.Əlibəyli öz əsərlərini uşaqların anlayacağı, onların qəlb dünyasına tez bir zamanda təsir edəcək dildə yazmış, uşalqlarda, əsasən, möhkəm, sarsılmaz mənəvi keyfiyyətlər formalaşdırmağa çalışmışlar.

8.Üçüncü fəsildə keçən əsrin 60-80-ci illərində rus uşaq poeziyasının tədqiqi göstərmişdir ki, bu dövrdə yaranan rus uşaq poeziyası həm də keçmiş sovet məkanında aparıcı poeziya məktəblərindən biri olmuşdur.

9. Sözü gedən fəsildə rus uşaq poeziyasının yaradılmasında görkəmli xidmətləri olmuş Aqniya Lvovna Bartonun, Yelena Aleksandrovna Blagininanın və İrina Petrovna Tokmakovanın yaradıcılığının öyrənilməsi, bizə onların uşaq psixologiyasını yaxşı bilmələri, uşaqların poetik dünyasına asanlıqla yol tapmalarına imkan vermişdir. Yaradıcılığı yüksək qiymətləndirilən A.L.Bartonun, Y.A.Blaginanın və İ.P.Tokmakovanın peşəkarlığı, poetik ustalığı müasirlərindən fərqlənmişdir. Onların yaradıcılığı uşaq mənəvi keyfiyyətlərinin poetik tərənnüm və təbliği baxımından seçilir.

10. Dissertasiyanın dördüncü fəslində Azərbaycan və rus uşaq nəsrinin müqayisəli kontekstə öyrənilməsi göstərmişdir ki, keçən əsrin 60-80-ci illərində uşaq nəsri hər iki xalqın ədəbiyyatında özünü dolğun və zəngin ədəbi nümunələr səviyyəsində təsdiq etmişdir.

Azərbaycanda milli uşaq nəsrinin yaranma tarixinin tədqiqi göstərmişdir ki, milli uşaq nəsri əsrlərin dərinliyinə dayanan fundamental bədii baza əsasında meydana çıxmışdır. Yəni, Azərbaycan uşaq nəsri, orta əsr klassiklərinin yaradıcılığında və sanballı nasirlərin imzalarında xüsusi bir mərhələdir.

11. XX əsrin 60-80-ci illərində, uşaq ədəbiyatının inkişafına böyük təkan vermiş Ə.Babayeva və Ə.Əhmədova yaradıcılığı, uşaq mövzusundakı əsərlərində balaca və məktəb yaşlı uşaqlara həyatın sirlərini, ailədə, məktəbdə dostluqda, yoldaşlıqda doğru-düzgün, etibarlı, sədaqətli, vəfalı olmağı, namuslu yol seçməyi, müasir

dövrün həqiqətlərini cəlbedici süjet aktları vasitəsilə çatdırmışlar. 60-80-ci illəri əhatə edən uşaq mövzulu əsərlərində sovet uşaq əxalqının prinsip və normalarını təbliğ etsələrdə, uşaqlarımızın Azərbaycan milli-mənəvi dəyərlərinə bağlılığına da xüsusi əhəmiyyət vermişlər.

12. Sözü gedən fəsildə XX əsrin 60-80-ci illərində rus uşaq nəsrinin tədqiqi göstərmişdir ki, sözü gedən dövr rus uşaq ədəbiyyatı həm imzaların kəmiyyəti, həm də bədii fakturanın nəhəngliliyi və zənginliyi ilə əlamətdardır.

Z.İ.Voskresenskayanın və L.F.Voronkovanın nəsr əsərlərinin öyrənilməsində aydın olmuşdur ki, rus uşaq nəsrinin inkişafında böyük rol oynamış müəlliflər, məktəbəqədər və kiçik məktəblilər üçün əsərlərində əməyin təsviri, vətənpərvərlik, cəmiyyət üçün yararlı olmaq kimi motivlər aparıcı rol oynamışdır. Onların əsərləri "xəyalların uçuşu", "hüdudsuz romantika" kimi xüsusiyyətlərinə görə fərqlidir, uşaqlara həmişə optimizm əhval-ruhiyyəsi aşılamağa çalışmışlar. Bu əsərlər, müasir dövrümüzdə də öz bədii-estetik cazibəsini itirməmişdir.

13. Dissertasiyanın beşinci fəslində müəyyənləşdirilmişdir ki, Azərbaycan və rus uşaq folkloru özünün mənəvi-poetik strukturu etibarilə uşaq psixologyasının mənəvi modelinə uyğundur. Uşaqların körpəlikdən yetkinlik yaşlarına qədər folklor janrlarına maraq göstərməsinin səbəbi budur. Xeyir-şər, yaxşı-pis, mərd-naməld, səxavətli-xəsis, qəhrəman-qorxaq və s. kimi ilkin binar-oppozitiv modelləri özündə əks etdirən folklor mətnləri, insan mənəviyyatının formalaşmasının ilkin poetik qaynaqları rolunu oynayır, insanın ömrüboyu yaddaşının ayrılmaz tərkib hissəsi kimi qalır.

14. Beşinci fəsildə Azərbaycan uşaq ədəbiyyatında folklorun daim milli uşaq ədəbiyatının poetik qaynağı olmasından, Azərbaycan folklorunda motiv və obrazların zənginliyindən söz açılmışdır. Tədqiqat göstərmişdir ki, folklordakı div, əjdaha, pəri, ifritə, cin və s. kimi mifik-fantastik obrazlar təbiətin müxtəlif stixiyalarını özündə əks etdirməklə təkcə folklor mətnləri ilə məhdudlaşmır, həm də ənənəvi düşüncə ilə yaşayan insanının görüşlərini də əks etdirir. Burada, Azərbaycan uşaq ədəbiyyatında folklor motivlərinə müraciətlər, həmin yazıçıların öz yaddaş arxiteplərini bədii

ədəbiyyat müstəvisində yenidən aktuallaşdırmaları (reaktualizasiyası) kimi şərh olunmuşdur.

15. Beşinci fəsildə rus uşaq ədəbi nümunələrində folklor motiv və obrazlarının tədqiqi göstərmişdir ki, rus folkloruna geniş şəkildə müraciət edən yazçılar öz əsərlərində bu motiv və obrazları yenidən aktuallaşdırmaqla onların eyni zamanda keçmiş SSRİ miqyasında məşhurlaşmasına da səbəb olmuşlar.

Başqa sözlə, milli xalqların balaca oxucuları öz folklor qəhrəmanlarını tanıdıqları kimi, milli dillərə geniş şəkildə tərcümə olunan rus uşaq ədəbiyyatının vasitəsilə rus folklorunun da qəhrəmanları tanınmışdı.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin Azərbaycanda və xaricdə dərc edilmiş aşağıdakı məqalələrdə və iştirak etdiyi beynəlxalq konfranslarda öz əksini tapmışdır:**


1. XX əsr uşaq ədəbiyyatı problemləri: M.Ə.Sabir // "Ulu öndər Heydər Əliyev irsində Multikultural və Tolerant dəyərlər" mövzusunda VII Beynəlxalq elmi konfransın materialları. – Bakı: BDU, – 3-5 may, – 2016. – s.84-87.
2. Ə.Cəmil "Can Nənə, Bir Nağıl De"- günümüzün acılarının təsiri // Ulu öndərin Heydər Əliyevin 94-cü il dönümünə həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində Multikultural və Tolerant dəyərlər" VIII Beynəlxalq elmi konfransın materialları, – Bakı: Mütərcim, – 4-5 may, – 2017. – s.439- 441.
3. Tükənməz ömrün dastanı // Azərbaycan xalqının ümumilli lideri H.Əliyevin anadan olmasının 94-cü il dönümünə həsr olunmuş filologiyanın aktual problemləri mövzusunda Respublika elmi- nəzəri konfransın materialları. – Bakı: BDU, – 17-18 may, 2017. – s.10-12.
4. Molla Pənah Vaqif poeziyasında folklor motivli məhəbbət // AMEA Folklor İnstitutu "Molla Pənah Vaqif və folklor" mövzusunda elmi konfrans. – Bakı: – 21 iyun, – 2017. – s.206-213.
5. Azərbaycan uşaq ədəbiyyatında folklor motivləri // "Uluslararası çocuk ve gençlik edebiyyatı" adlı IV beynəlxalq simpozium materialları. – İstanbul: – 20-21 ekim, – 2017. – s.37-42.

6. Позиция Абдуллы Шаига в Азербайджанской детской литературе // VI Международная научно-практическая конференция студентов, аспирантов и молодых ученых «Инновационное развитие информационного общества: экономико-управленческие, правовые и социокультурные аспекты». – Чернигов: – 14 декабря, – 2017. – с. 380-383.
7. El ədəbiyyatının yeni bir qığılcımı - Hifzi Kağızmanlı // Ölümünün 100 yılında Kağızmanlı Hifzi Uluslararası simpoziumu. -Türkiyə: İqdır.- 7-9 nisan,- 2018.s.409- 413.
8. Dağıstan folklorunda Azərbaycan ruhu // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" IX Beynəlxalq konfransın materialları. – Bakı: Mütərcim, – 3-4 may, – 2018. – s. 428- 430.
9. Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü və inkişaf mərhələləri // "Kulturoloji Paradigmalar və yenilənən Azərbaycan" mövzusunda beynəlxalq konfransın materialları. – Bakı: BSU. –15-16 noyabr, – 2018. – s.19-22
10. Uşaq ədəbiyyatında milli-mənəvi dəyərlər (A.N.Tolstoy və C.Məmmədquluzadə) // Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu mövzusunda Beynəlxalq Elmi konfransın materialları. Sumqayıt: SDU. – 2018. – s.286-287.
11. Hüseyn Cavid işığında görünən əxlaqi dəyərlər // – ADU, Respublika elmi konfransının materialları. – 12 aprel, – 2019. – s. 278-284.
12. Azərbaycan və rus ədəbi əlaqələri// 19th International Academic Conference on Applied and Fundamental Studies. – USA: Missouri. – 2019. – s.34-36.
13. Rus uşaq ədəbiyyatının inkişafına tarixi baxış // Elm və təhsilin aktual problemləri mövzusunda Beynəlxalq elmi konfransın materialları. – Bakı: – 15 oktyabr, – 2019. – s. 158-168.
14. Azərbaycan uşaq folkloru: nəğmələr // VI Uluslararası çocuk və gençlik edebiyyatı sempozyumu bildirileri. Çocuk və Gençlik Edebiyyatı Yazarları birliği.– Bakü. – 18-19 Ekim, – 2019. – s. 24-30.

15. Uşaq ədəbiyyatının inkişafına tarixi baxış // C.Məmmədquluzadənin doğulmasının 150 yıl dönümünə həsr olunmuş Uluslararası Simpoziumun materialları. – Türkiyə: Qars, – 19 dekabr, – 2019. – s.56-69.
16. R.Rza dünyasında uşaq ədəbiyyatına bir baxış // R.Rzanın anadan olmasının 110 illiyinə həsr olunmuş V Beynəlxalq elmi konfrans. – İsveç: Stokholm, –25-26 iyun, – 2020. – s.28-33.
17. Azərbaycan uşaq folkloru: Atalar sözü // VII Uluslararası çocuk və gençlik edebiyyatı sempozyumu bildirileri. Çocuk və Gençlik Edebiyyatı Yazarları birliği. – Türkiyə: İstanbul, Akademi Matbaası, – 28-29 Ekim, – 2020. – s.343-347.
18. C.Məmmədquluzadənin "Dəli yığıncağı" tragikomediyasında "Dəlilər" və "Ağıllılar" mühiti // "Tarixdə şəxsiyyətin rolu" adlı Ü.Hacıbəylinin anadan olmasının 135 illik yubileyinə həsr olunmuş VIII Beynəlxalq konfrans. – Türkiyə: Qars, – 13 noyabr, – 2020. – s.60-66.
19. XIX-XX əsrin qovuşuğunda uşaq poeziyası // Həbibinin anadan olmasının 550 illik yubileyinə həsr olunmuş IX Beynəlxalq konfransın materialları. – Makedoniya: Qostevar, – 19 dekabr, – 2020. – s.67-71.
20. Azərbaycan uşaq poeziyasının inkişaf yolları // "Filoloji elmlər innovativ tədqiqatlar kontekstində" adlı Beynəlxalq elmi-praktik onlayn konfrans. – Bakı: BSU. – 24 dekabr, – 2020. – s. 301-304.
21. 60-80-ci illərdə Azərbaycan uşaq poeziyası // Dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş "Elm və təhsil: dünən, bu gün və sabah" X Beynəlxalq elimi-praktik konfrans. – İsveç: Stokholm, – 25 yanvar, – 2021. – s.76-80.
22. Ədəbiyyatımızda uşaq ədəbiyyatının yeri (I məqalə) // XI Beynəlxalq Elmi Simpozium "Müasir dünyada mədəniyyətlərarası münasibətlər" materialları. – Tbilis – 27 fevral, – 2021. – s.41-45.
23. Ədəbiyyatımızda uşaq ədəbiyyatının yeri (II məqalə) // XII Beynəlxalq Elmi Simpozium "Şərq və Qərb mədəniyyətlərin inteqrasiyası" materialları. – Eskişəhər: – 30 mart, – 2021. – s.77-80.

24. Nigar Rəfibəyli dünyasında uşaqların yeri // XV Beynəlxalq Elmi Simpozium materialları. – İran: Tehran, – 26 iyun, – 2021. – s.77-84.
25. Folklor- tərbiyə vasitəsi kimi // "Zəka İşığında" Ramazan Qafarlı – 70. Uluslararası Sosyal ve Kültürel Bilimlər Konqresi. – Bakı: AMEA, Folklor institutu, – 15-16 iyul, – 2021. – s.398-401.
26. "Şanlı nəsillərin yadigarıyam" N.Rəfibəyli elegiyası // XVI Beynəlxalq Elmi Simpozium Şəhriyar-115. – ABŞ: Miçiqan, – 26 iyul, – 2021. – s.39-43.
27. Nizami Gəncəvi – sözü insan, idealı ədalət, məqsədi ədəb // VIII Uluslararası Cocuq və Gənclik ədəbiyyatı Sempozyumu. – İstanbul: – 22-23 oktyabr, – 2021. – s. 157-160.
28. Türk dünyasına ehtiram – M.Dilbazi yaradıcılığında // BSU-nun 75 illiyinə həsr olunmuş "Türk Dünyası: Geosiyasət və mədəni reallıqlar" Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı: Mütərcim, – 8 dekabr, – 2021. – s.51-54.
29. Tarixin özünü ədəbiyyatın gözü ilə görmək səadəti // "Mədəniyyətlərarası dialoq" Ə.Cəfərzadənin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş XX Beynəlxalq elmi konfransın materialları. – Sankt-Peterburq: – 28 noyabr, – 2021. – s.41-45.
30. Günəşə uzanan əllər (Qaraca qız və İsmayıl) // 9. Uluslararası Cocuq və Gənclik ədəbiyyatı Sempozyumu. – Türkiyə: Ərzurum, Akademi Matbaası, – 21-23 oktyabr, – 2022. – s.224-228.
31. Uşaqların həyatı Kamran Dadaşoğlunun yaradıcılığında // "Şifahi və yazılı ədəbiyyatımızın görkəmli tədqiqatçısı" mövzusunda K.Məmmədovun anadan olmasının 100 illiyinə həsr olunmuş Elmi Konfransın materialları. – 24 yanvar, – 2023. – s.156-169.
32. Mir Cəlal Paşayevin uşaq ədəbiyyatının formalaşmasında rolu // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. – Bakı: Mütərcim, – 2017. №4, – s. 179-181.

33. Maarifçiliyin inkişafında Rəşid bəy Əfəndiyevin rolu // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. – Bakı: Mütərcim, – 2018. №4, – s.221-224.
34. Gözəllikləri görən gözlər // Dil və ədəbiyyat. – Bakı: BDU, – 2019. №2(10), – s.215-218.
35. Azərbaycan və rus uşaq ədəbiyyatının təşəkkülü, inkişaf mərhələri // "Homeros" dərgisi. – 2019. Cild 2, – s.1-10.
36. Azərbaycanda maarif və mədəniyyətin tarixi yolu // Sosial bilimlər alanında akademik araşdırmalar. – Türkiyə: Ankara, – 2021. – I kitab, – s.4-23.
37. Azərbaycan cocuq şiiri (60-80 iller) // Türk Dünyası Ədəbiyyatı. – İstanbul: – 2021. 7 kitab, – s.311-343.
38. Rus uşaq poeziyası: 60-80-ci illər // BSU, Elmi əsərlər. – Bakı: Mütərcim, – 2021. №1, – s.184-194.
39. 60-80-ci illərdə rus uşaq poeziyası: Aqniya Lvovna Barto // AMEA, Filologiya məsələləri. – Bakı: Elm və təhsil, – 2021. № 8, – s.418-428.
40. 60-80-ci illərdə rus uşaq poeziyası: Yelena Aleksandrovna Blaginina // Humanitar elmlərin aktual problemləri. – Bakı: Mütərcim, – 2021. № 3, – s.140-145.
41. 60-80-ci illərdə rus uşaq poeziyası: İrina Petrovna Tokmakova // GDU, Elmi xəbərlər. – Gəncə: – 2021. №2, – s.236-243.
42. Günün baxış bucağından görünən – Azərbaycan uşaq nəsri // The scientific heritage. – Macarıstan: – 2021. Vol 6, № 80 (80). – p.37-43.
43. Azərbaycan uşaq nəsrinin inkişaf yolları // Dil və ədəbiyyat. – Bakı: BDU, – 2022. – s.148-151.
44. Z.İ.Voskresenskaya və L.F.Voronkova yaradıcılığında rus uşaq nəsrinin inkişafı // Humanitar Elmlərin Öyrədilməsinin Aktual Problemləri. – Bakı: Mütərcim.– 2022. № 4, – s.178-182.
45. Folklor motivləri ədəbi nümunələrdə // Науковий Вісник Міжнародного Гуманітарного Університету, серия: филология. – Україна: Одеса, – 2022. – випуск 54, – с.128-131.

46. Rus uşaq folkloru haqqında mülahizələr // Dədə-Qorqud jurnalı. AMEA Folklor İnstitutu. – Bakı: Elm və təhsil, – 2022. Buraxılış 1, – s.79-89.
47. Azərbaycan uşaq folklorunda lirik və epik növ // AMEA Nizami adına Ədəbiyyat İnstitutu Poetika.İzm. – Bakı: Elm və təhsil, – 2022. № 1, s.114-122.
48. Didacticism and Morality in Azerbaijan Children`s Literature // – Polşa: Studia Oientalne, – 2022. R. 11, nr 3 (23), – s.67-76.
49. The role of Alaviyya Babayeva in Azerbaijani fine prose // Universidad & Sosiedad. Ciencia, conciencia y sostenibilidad: palabras claves para nuestras publicaciones en el 2023. – Enero-Febrero: – 2023. – p.222-228.
50. Seyid Əzim Şirvaninin yaradıcılığında maarifçilik // Мир науки, культуры, образования. – Москва: Концепт. – 2023. №4 (101), – с. 231-241.
51. Russian children’s prose between 1960 and 1980 // Paradigm an internationaı journal of social sciences. – Turkey: – 2022. – p.12-27.
52. Azərbaycan uşaq folklorunun əsas xüsusiyyətləri // Filologiya məsələləri. AMEA, M. Füzuli adına Əlyazmalar İnstitutu. – Bakı: Elm və təhsil, – 2023. №6, – s.301-312.

Dissertasiyanın müdafiəsi 3 aprel 2025-ci il tarixində saat 12^00-da Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 06 mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.03.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 86867 işarə

Tiraj: 100 nüsxə